RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 145 (9890) 17 iyul 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir

## Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Respublikasına səfərə gəlib

Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Azərbaycan Respublikasına səfərə gəlib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.

Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov "Sea Breeze" istirahət mərkəzində olublar.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov birgə nahar ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva ilə görüşüb.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə olub.

Ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Fəxri xiyabanı və Bakıdakı Zəfər parkını ziyarət edib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb.

2-5

## Azərbaycan-Türkmənistan: körpüsü Xəzər olan dost ölkələr



İki ölkə arasında iqtisadi əməkdaşlığın təməli Sovet İttifaqının dağılmasından sonra qoyulub. 1991-ci ildə müstəqillik qazanan respublikalar yeni geosiyasi reallıqlar qarşısında dayansa da, ortaq tarix, dil və mədəniyyət onların qarşılıqlı əlaqələrinin tez bir zamanda qurulmasına zəmin yaratdı. İlk illər münasibətlər əsasən diplomatik səviyyədə olsa da, çox keçmədi ki, konkret iqtisadi addımlar atılmağa başladı. Azərbaycan və Türkmənistan arasında ilk ticarət sazişləri imzalandı, gömrük və nəqliyyat sahəsində qarşılıqlı razılaşmalar əldə edildi. Bu sənədlər ikitərəfli ticarətin hüquqi bazasını formalaşdırdı. Bu gün Azərbaycan Türkmənistandan əsasən karbamid (kimyəvi gübrə), pambıq, neft və tekstil məhsulları idxal edir. Türkmənistana isə qida məhsulları, tikinti materialları, avadanlıq və maşınlar ixrac olunur.

8

## "Azərbaycana qarşı təkəbbürlü davranış keçmir və keçməyəcək"

Kremldəkiləri qıcıqlandıran ikinci amil Azərbaycanın sərnişin təyyarəsini Qroznı üzərində vuran Rusiyanın təkəbbürlü və ləyaqətsiz davranışlarına dövlətimizin göz yummaması, bu ölkədəki güc strukturlarının oradakı soydaşlarımızla vəhşicəsinə davranışlarını cavabsız qoymaması, bununla da İkinci Qarabağ savaşından sonra növbəti presedent yaratmasıdır: "İmperiya sindromundan qurtula bilməyənlər digər MDB ölkələrinin də oxşar məsələlərdə Azərbaycan kimi davranacaqlarından əndişələnirlər. Ona görə də ağına-bozuna baxmadan dəlicəsinə davranırlar. Əlbəttə, təkcə beynəlxalq normaları deyil, yazılmamış qaydaları belə ayaq altına salıb tapdalayan bir rejimin burada imic baxımından onsuz da itirəcəyi heç nə yoxdur, çünki imicləri onsuz da süpürgəliyin altındadır. Amma bu cür siyasət Moskvaya Qafqazın tək bu tərəfində deyil, o tərəfində də çox baha başa gələ bilər".

"Geosiyasi fəlakət adlandırdıqlarının nəticələrini aradan qaldırmaq sevdasına düşənlər Bakı Təşəbbüs Qrupunun dekolonizasiya yönündəki ardıcıl fəaliyyəti nəticəsində Yeni Kaledoniyanın necə müstəqillik qazanma şansı əldə etdiyini görmürlərmi?" Cavab da budur ki, imperiya mərəzindən qurtula bilməyənlər sərhədlərindən minlərlə kilometr uzaqda yaşayan xalqların azadlıq əldə etmələrinə önəmli töhfə verməyi bacaran bir dövlətlə bu cür davranışların nəyə aparıb çıxara biləcəyini anlamırlarsa, bu, onların problemidir. Onlar unutmamalıdırlar ki, Azərbaycan özünü böyük sayanlardan yüksəkdə durduğunu son zamanlar atdığı addımlarla dəfələrlə təsdiqləyib və bu, yumşaq gücün tətbiqi məsələsində də keçərlidir".

8

## Zəngəzur dəhlizi məsələsində ortaq məxrəcə gəlmək mümkün olacaqmı?

### Azərbaycan və Ermənistan arasında danışıqlar, böyük güclər arasında isə mübarizə gedir

Ermənistan öz siyasi kaprizləri və kənar qüvvələrin təsiri ilə uzun müddət Zəngəzur dəhlizinin açılması barədə qərar qəbul edə bilmirdi. Xüsusən İranın qonşu ölkə üzərində olan təsir imkanları bu məsələdə önəmli rol oynayırdı. İranın tez-tez "sərhədlərin dəyişilməzliyi qırmızı xəttimizdir" bəyanatlarının Ermənistana qarşı yönəlmiş tələ olduğunu İrəvanda, nəhayət ki, anladılar. Başa




düşdülər ki, bu bəyanatlar fonunda İran Azərbaycana Zəngəzur dəhlizinə alternativ olaraq Araz dəhlizini təklif edir. Həmin təklifi ölkəmizin milli maraqlarına uyğun olduğu üçün qəbul etdik və saziş bağladıq. Bu sazişdən sonra İrəvan da "yetimə can-can deyən çox olar, çörək verən az olar" atalar sözlərinin nə qədər doğru olduğunu anladı.

8

## Qareginin qara günü yaxınlaşır

Paşinyan artıq bir müddətdir ki, kilsə rəhbərliyini dövlət işlərinə müdaxilədə və siyasi dairələrlə gizli əməkdaşlıqda ittiham edir. Onun fikrincə, Ermənistan Apostol Kilsəsi, xüsusən də hazırkı katolikos, cəmiyyətin demokratik inkişafına mane olur və keçmiş hakimiyyətlərlə sıx əlaqədə qalmaqda davam edir.

"Hraparak" nəşri yazıb ki, Nikol Paşinyan hakim partiyanın idarə heyətinin üzvlərinə kilsəyə qarşı təzyiqləri daha da artırmağı tapşırıb. Qeyd olunub ki, ruhanilər barədə dəhşətli hekayələri yaymaq, əsəb savaşı aparmaq, kilsə xadimlərini hər gün gözdən salmaq tapşırılıb: "Yeri gələndə hüquq-mühafizə orqanlarına qanunsuz göstərişlər vermək, insanların şəxsi həyatının toxunulmazlığını pozmaq nəticəsində əldə edilmiş sübutları, faktları da dərc edəcəklər. Hələlik xalqın səbrinin tükənəcəyindən və əks effekt verə biləcəyindən ehtiyatlanaraq "ifşalar etmək"də tərəddüd edirlər. Paralel olaraq hakimiyyət həmçinin kilsə daxilində müxtəlif ruhanilər vasitəsilə II Qareginə qarşı koalisiya yaratmaq və onun uzaqlaşdırılması üçün münbit zəmin yaratmaq üzərində işləyir. Lakin indiki məqamda bu cür ruhanilər hələ də azlıq təşkil edir və çətin ki, çoxluq təşkil edib kilsə daxilində "hakimiyyət dəyişikliyi" həyata keçirsinlər".



12

# Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub

**İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olub.**









AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovu qarşıladı.

Dövlətimizin başçısı və Türkmənistan Xalq Məsləhətinin Sədri birgə foto çəkdirdilər.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

- Hörmətli Qurbanqulu Məlikquliyeviç.

Azərbaycana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram. Əminəm ki, səfəriniz Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafına öz töhfəsini verəcək. Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir və müstəqillik dövründə bu əlaqələr daha da gücləndi. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. Bizim aramızdakı tarixi əlaqələr bugünkü əlaqələr üçün əsas zəmindir və əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizə yeni təkan verəcək. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə, o cümlədən nəqliyyat, energetika sahələrində bir çox nailiyyətlərimiz var və əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bu gün fikir mübadiləsi aparacağıq.

Əziz qardaşım, bir daha xoş gəlmisiniz Azərbaycana.

❖ ❖ ❖

Türkmənistan Xalq Məsləhətinin Sədri **Qurbanqulu Berdiməhəmmədov** çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətlərinin üzvləri.

Əvvəlcə icazə verin, Azərbaycana səfərə dəvət etdiyinizə, göstərilən qonaqpərvərliyə və səmimi münasibətə görə Sizə ürəkdən təşəkkür edim.

Mən həmçinin Türkmənistan Prezidenti zati-aliləri Sərdar Berdiməhəmmədovun səmimi salamlarını və xoş arzularını Sizə çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Respublikasına bu səfərimin əsas məqsədi ikitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul verməkdir.

Ümumilikdə Türkmənistan-Azərbaycan dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsini xarakterizə edərkən onları üç sözlə ifadə edərdim: qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq.

Biz möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacının olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-amanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazır olmağa əsaslanırıq.

Qanunauyğun haldır ki, Türkmənistan və Azərbaycan bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır. Bu, bizə ikitərəfli əməkdaşlığın bütün məsələləri üzrə düzgün və vaxtında qərarlar verməyə, əldə olunmuş razılaşmaların həyata keçirilməsini təmin etməyə imkan yaradır.

Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir.

Ən böyük beynəlxalq təşkilatlarda, ilk növbədə BMT-də, bir sıra regional strukturlarda uğurla və səmərəli əməkdaşlıq edirik. Bu baxımdan, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin 17-ci Zirvə görüşünün bu yaxınlarda Xankəndi şəhərində uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik etmək istərdim.

İqtisadi-ticari tərəfdaşlıq uğurla inkişaf edir, onun keyfiyyət və kəmiyyət göstəriciləri artır.

Mədəniyyət, elm, təhsil, şəxsi və insani səviyyələrdə ənənəvi əlaqələr genişlənir.

Dövlətlərarası münasibətlərin çox mühüm elementləri olan parlamentlərarası əlaqələrin, xalq diplomatiyasının əhəmiyyəti və rolu artır.

Əminəm ki, bu səfər Türkmənistan ilə Azərbaycanın bundan sonra da yaxınlaşması, əməkdaşlığın uzunmüddətli strategiyasının reallaşdırılması kontekstində razılaşdırılmış yanaşmaların işlənib hazırlanmasında mühüm amilə çevriləcək.

Hörmətli İlham Heydər oğlu, qardaş Azərbaycan torpağında hər zaman səmimi qarşılandığımıza görə Sizə bir daha təşəkkür edirəm.

Çox sağ olun.

❖ ❖ ❖

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Xahiş edirəm, mənim də salamlarımı hörmətli Prezident Sərdar Berdiməhəmmədova çatdırasınız.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri "Sea Breeze"də olublar







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da "Sea Breeze" istirahət mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, "Sea Breeze"in təsisçisi Emin Ağalarov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin Sədrinə Xəzər dənizinin sahilində yerləşən kurort ərazisində həyata keçirilən və qarşıdakı dövr üçün nəzərdə tutulan layihələr barədə məlumat verib.

Qeyd olunub ki, bu istirahət mərkəzini paytaxtdan cəmi 30 dəqiqəlik məsafə ayırır. Müxtəlif formatda çoxsaylı daşınmaz əmlak obyektlərini bir araya gətirən "Sea Breeze" dünyada nadir layihə hesab olunur. Burada indiyədək 3 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilərək istifadəyə verilib, 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. Bundan başqa, ərazidə 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımada da yaradılacaq.



"Sea Breeze"də artıq 20 min sakin yaşayır. 2028-ci ilə qədər isə onların sayı 50 mindən çox olacaq. Layihə tam yekunlaşdırıldıqdan sonra burada 500 min sakin yaşayacaq.

"Sea Breeze"də sakinlər və qonaqlar üçün rahat şəraitin yaradılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili məqsədilə zəruri infrastruktur qurulub. Belə ki, burada istirahət zonaları, parklar və çimərliklər üçün 150 hektardan çox ərazi ayrılıb, məktəb, uşaq bağçası, xəstəxana tikilib, təxminən 10 milyon bitki və ağac əkilərək yaşıllıq sahələrinin ümumi ərazisi 300 hektara çatdırılıb. Hazırda 500 hektar ərazini əhatə edən "Sea Breeze"in əsas layihələri sahilboyu yerləşir.

"Sea Breeze"in ərazisində 6560 nəfər işlə təmin olunub, gələcəkdə bu rəqəmin xeyli artırılması planlaşdırılır. Layihəyə yatırılan ümumi investisiyanın məbləği 3 milyard ABŞ dollarına çatıb. Növbəti beş ildə isə 10 milyard dollardan çox sərmayənin cəlb olunması planlaşdırılır.

# Xalqlarımızı dərin qardaşlıq ənənələri birləşdirir

## Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov birgə nahar ediblər



İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov birgə nahar ediblər.

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistan Xalq Məsləhəti Sədrinin qızı Oquldjaxan Atabayeva ilə görüşüb



İyulun 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva ilə görüşüb.

## Azərbaycan - Türkmənistan münasibətlərinin təməlində ortaq dəyərlər dayanır

### Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşüb



**İyulun 16-da ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova qarşılayıb.

Xalq Məsləhətinin Sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bu səfərin ölkələrimiz arasında münasibətlərin inkişafı və möhkəmlənməsi işinə xidmət edəcəyinə inamını ifadə edib.

2022-ci ilin dekabrında Türkmənistana rəsmi səfərini xatırlayan Milli Məclisin Sədri həmin səfər çərçivəsində keçirdiyi görüşlərdən məmnunluqla danışıb.

Söhbət zamanı spiker Sahibə Qafarova qeyd edib ki, xalqlarımızın ortaq tarixi, mədəni, dil, din və ailə dəyərləri, oxşarlıqları ölkələrimiz arasında münasibətlərin təməlini təşkil edir. Müstəqillik qazandıqdan sonra məhz bu möhkəm təməl üzərində ölkələrimiz arasında geniş münasibətlər qurulub.

Bildirilib ki, dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində və dərinləşdirilməsində qarşılıqlı səfərlər və ali səviyyədə görüşlər müstəsna rol oynayır.

Qeyd olunub ki, Azərbaycan və Türkmənistan bir sıra beynəlxalq təşkilatlarda uğurla əməkdaşlıq edirlər. Türkmənistan tərəfinin Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşəbbüslərinə daimi dəstəyi yüksək qiymətləndirilir.

Görüşdə həmçinin qeyd olunub ki, ölkələrimiz arasında mövcud müqavilə-hüquq bazası çox geniş olmaqla siyasi, iqtisadi, ticarət, humanitar və digər əməkdaşlıq sahələrini əhatə edir.

Söhbət zamanı diqqətə çatdırılıb ki, Azərbaycan və Türkmənistan arasında iqtisadi sahədə də tərəfdaşlığın daha da möhkəmləndirilməsi üçün möhkəm təməl mövcuddur, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir. Bununla yanaşı, ölkələrimiz arasında humanitar əməkdaşlıq da xüsusi məna və xarakter kəsb edir.

Söhbət zamanı Azərbaycan və Türkmənistan arasında ikitərəfli və çoxşaxəli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri kimi parlamentlərimizin qarşılıqlı fəaliyyəti barədə danışan spiker Sahibə Qafarova qeyd edib ki, qarşılıqlı səfərlər, parlament sədrlərinin və qanunvericilərin görüşləri bu əməkdaşlığa mühüm təkan verir. Parlamentlərarası əlaqələr üzrə dostluq qrupları birgə fəaliyyətləri və əməkdaşlıqları ilə parlamentlər arasında körpü rolunu oynayırlar.

Qeyd olunub ki, iki ölkənin parlamentarilərinin həm ikitərəfli formatda, həm də parlamentlərarası qurumlar çərçivəsində qarşılıqlı fəaliyyətinin genişləndirilməsi Azərbaycan və Türkmənistan arasında münasibətləri daha da intensivləşdirməyə kömək edəcək.

Ölkəmizə səfərindən məmnunluqla danışan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov bu səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş və aparılmış müzakirələr barədə yüksək təəssüratlarını bölüşüb.

O, Sahibə Qafarovanın 2022-ci ilin dekabrında Türkmənistana səfərini xatırlayaraq, həmin səfərin çox məhsuldar keçdiyini qeyd edib.

Xalqlarımızın və dövlətlərimizin türk ailəsinin üzvləri kimi dünya siyasətinə verdiyi mühüm töhfələrdən danışan qonaq, COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsinə və mühüm məsələlərin müzakirəsinə görə bir daha təbriklərini çatdırıb.

Söhbət zamanı qonaq regional məsələlər, gender məsələləri, gənclər siyasəti, iqtisadi əlaqələr, Hökumətlərarası komissiyanın fəaliyyəti, parlament diplomatiyası, parlamentlərarası dialoq və digər mövzular barəsində fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Türkmənistan Xalq Məsləhətinin Sədri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Fəxri xiyabanı ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Qurbanqulu Berdiməhəmmədov xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Türkmənistan Xalq Məsləhətinin Sədri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər çiçəklər düzüb.

## Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Zəfər parkını ziyarət edib





**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Bakıdakı Zəfər parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Xalq Məsləhətinin Sədri parkdakı Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi.

Qeyd olundu ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

# Türkmənistan Xalq Məsləhətinin Sədrinin qızı Oquldjaxan Atabayeva Heydər Əliyev Mərkəzində olub







Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 16-da Heydər Əliyev Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Oquldjaxan Atabayeva əvvəlcə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli Liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan qonağa bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Musiqi alətləri: Birlik və müxtəliflik" sərgisi ilə tanışlıqdan sonra Oquldjaxan Atabayeva "Kukla İncəsənətdə" və Azərbaycan xalçalarından ibarət "İlmələrin rəqsi" sərgisinə baxış keçirib.

Daha sonra qonaq tanınmış heykəltaraş Andrey Ostaşovun "Qızılgülün sirri", rəssam və heykəltaraş Luiz de Souzanın "Əbədiyyətin ifadəsi" sərgiləri ilə tanış olub.

Mərkəzlə tanışlıqdan sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva arasında görüş keçirilib.

Görüşdən sonra Mərkəzin direktoru Anar Ələkbərov qonağa xatirə hədiyyəsi təqdim edib.

Oquldjaxan Atabayeva mərkəzdən xoş təəssüratla ayrılıb.

# Bakı Kitab Mərkəzində







**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 16-da Bakı Kitab Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva qonağa mərkəz haqqında məlumat verib.

Bildirilib ki, Bakı Kitab Mərkəzi 2018-ci ildən rəsmi olaraq fəaliyyət göstərir. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yaradılmış mərkəz kitab satışına yeni yanaşma gətirərək Azərbaycan, rus, türk, ingilis və digər dillərdə müxtəlif janrlarda kitablar təqdim edir. Sahəsi 2500 kvadratmetr olan mərkəzin 1-ci və 2-ci mərtəbələrində Heydər Əliyev Fondunun nəşrləri nümayiş olunur. Birinci mərtəbədə həmçinin "I Love Baku" brendinin, "Azərpoçt" MMC-nin məhsulları, Azərbaycan dilində və xarici dillərdə dünya bestsellerləri, klassik ədəbiyyat, qeyri-bədii əsərlər, incəsənət albomları, turist bələdçiləri, dəftərxana malları və hədiyyələr mövcuddur. Kitab satışına əlavə olaraq birinci mərtəbədə "Coffeemood" adlı kafe fəaliyyət göstərir.

Qeyd edilib ki, mərkəzin ikinci mərtəbəsində oxu zalı, zəif görmə qabiliyyəti olan insanlar üçün xüsusi bölmə, uşaqlar üçün guşə, müxtəlif tədbirlərin keçirilməsi və elmi fəaliyyətlərlə məşğul olanlar üçün nəzərdə tutulmuş sahələr mövcuddur.

Bakı Kitab Mərkəzində kitabsevərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün əlavə imkanlar da var. Burada mütəmadi olaraq müxtəlif kitab təqdimatları, mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, imza saatları, uşaqlar üçün "Oxu" saatları və yaradıcılıq dərnəkləri, beynəlxalq təşkilatlar, eləcə də xarici səfirliklərlə birgə təşkil olunan tədbirlər keçirilir. Müxtəlif yerlərdə quraşdırılmış monitorlarda yeni kitablar haqqında məlumatlar təqdim olunur. Sensor ekranlar vasitəsilə mərkəzdə mövcud olan bütün kitablar haqqında məlumat əldə etmək mümkündür.

Sonda Bakı Kitab Mərkəzi adından qonağa xatirə hədiyyəsi təqdim olunub.

# Milli Xalça Muzeyi ilə tanışlıq







**Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun qızı Oquldjaxan Atabayeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 16-da Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, muzeyin direktoru Əminə Məlikova qonağa xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verib.

Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası istifadə olunan materialların, toxuma texnikalarının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, muzeyin kolleksiyasının "qızıl fondu"nu Azərbaycanın 7 regionunun - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbrizin xovlu və xovsuz xalça nümunələri təşkil edir. Bununla yanaşı, ekspozisiyada digər dekorativ-tətbiqi sənət nümunələri də nümayiş olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd olunub ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük səyləri sayəsində milli xalçaçılıq sənəti 2010-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Qonaq həmçinin muzeydə xalçatoxuma prosesini izləyib.

Sonra Oquldjaxan Atabayevaya Azərbaycanın qədim kəlağayı sənəti haqqında məlumat verilib. Qonaq kəlağayının hazırlanma üsulu, onun üzərindəki ənənəvi naxışların daşıdığı mənalar barədə ətraflı məlumatlandırılıb.

Sonda qonağa Azərbaycan Milli Xalça Muzeyinin 55 illiyinə həsr olunmuş kitab hədiyyə olunub.

Oquldjaxan Atabayeva öz növbəsində Milli Xalça Muzeyinə xalça hədiyyə edib.

Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, ekspozisiya zallarının qeyri-adi quruluşu Oquldjaxan Atabayevada xoş təəssürat yaradıb.

# Şeyxülislam Allahşükür Paşazadə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb

**İyulun 16-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb.**



AZƏRTAC xəbər verir ki, Şeyxülislam Allahşükür Paşazadə qonağın Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O, Ümummilli Lider Heydər Əliyevin türkdilli dövlətlər arasında əməkdaşlığa verdiyi xüsusi önəmi xatırladaraq, bu strateji xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib.



Allahşükür Paşazadə Türkmənistanın müstəqillik əldə etdikdən sonra inkişaf yolunu seçdiyini, dövlətin uğurlarını məmnunluqla izlədiyini bildirərək, yaxın vaxtlarda Türkmənistana yenidən səfər etmək və Prezident Sərdar Berdiməhəmmədovla görüşmək arzusunda olduğunu deyib.

Dini sahədə əməkdaşlıq məsələlərinə toxunan Allahşükür Paşazadə Türkmənistanın müftisi ilə əvvəlki görüşünü xatırladıb. O, hər iki ölkənin dövlət başçılarının rəhbərliyi ilə Azərbaycan-Türkmənistan münasibətlərinin, o cümlədən dini-mənəvi sahədə əməkdaşlığın daha da genişləndiyini vurğulayıb.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov çıxışında Prezident İlham Əliyevlə keçirdiyi görüşdən məmnunluğunu ifadə edib. Qurbanqulu Berdiməhəmmədov Azərbaycan ilə Türkmənistan arasında mövcud dini və mənəvi bağlılığın xalqlarımızın dostluq münasibətlərini daha da möhkəmləndirdiyini vurğulayıb, bu görüşün əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Görüşdə birgə təşəbbüslərin strateji əhəmiyyət daşıdığı vurğulanıb, dini-mənəvi əməkdaşlığın bu çərçivədə mühüm yer tutduğu və gələcəkdə bu istiqamətdə birgə səylərin davam etdirilməsinin vacibliyi qeyd olunub.

Türkmənistan Xalq Məsləhətinin Sədri Şeyxülislam Allahşükür Paşazadəni Türkmənistanda keçiriləcək məscid açılışı mərasiminə dəvət edib.

Sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

Görüşün sonunda qonağın şərəfinə ziyafət verilib.

# Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycana səfərə gəlib




**Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 16-da Azərbaycan Respublikasına səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Xalq Məsləhətinin Sədrini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Leyla Əliyeva Azərbaycanda təbiətin mühafizəsinin 100 illiyinə həsr olunmuş fotosərginin açılışında iştirak edib

**İyulun 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Dənizkənarı parkda Azərbaycanın təbiətin mühafizəsi sahəsində fəaliyyətinin 100 illiyinə həsr olunmuş "Milli Parklar - Azərbaycanın 12 Möcüzəsi" fotosərgisinin açılış tədbirində iştirak edib.**



AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən sərgi ölkəmizin unikal biomüxtəlifliyini əks etdirən xüsusi mühafizə olunan ərazilərin, milli parkların təbiətini, zəngin florasını və faunasını fotoobyektiv vasitəsilə nümayiş etdirir.



Qeyd edək ki, Azərbaycan ərazisində təbiətin sistemli qorunmasına 1925-ci ildə ilk dövlət qoruğu olan Göygöl təbiət qoruğunun yaradılması ilə başlanılıb. Hazırda ölkəmizdə 12 milli park, 9 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Milli parklar Azərbaycanın təbiətinin mühafizəsinə dair dövlət siyasətinin əsas sütunlarından biridir. Bu siyasətin daha geniş ictimaiyyətə çatdırılması məqsədilə Leyla Əliyevanın təşəbbüsü ilə 2013-cü ildə "Azərbaycanın 7 Möcüzəsi" kinolayihəsinə start verilib. Milli parkların sayı artdıqca, layihənin adı da dəyişərək "Azərbaycanın 12 Möcüzəsi"nə çevrilib. Son olaraq, Prezident İlham Əliyevin 2025-ci il 14 iyul tarixli sərəncamı ilə Azərbaycanda daha iki yeni milli park - Axar-Baxar və İlisu milli parkları yaradılıb.



Layihənin təşəbbüskarı Leyla Əliyevanın rəhbərliyi ilə səkkiz sənədli film çəkilib, yüzlərlə videomaterial və fotoşəkil sosial şəbəkələrdə milyonlarla izləyici tərəfindən maraqla qarşılanıb. Bu fotosərgi həmin layihənin çoxsaylı və təsirli nəticələrindən biridir. Sərgidə təqdim olunan şəkillər təkcə Azərbaycanın təbiət möcüzələrini nümayiş etdirmir, həm də ekoloji maarifləndirmə baxımından mühüm rol oynayır. Burada tamaşaçılar təbiətin qorunmasının nə qədər vacib olduğunu hiss edir, insanın təbiətə olan məsuliyyətini daha dərindən anlayırlar.

"Azərbaycanın 12 Möcüzəsi" adlanan layihəyə daxil olan milli parklar ölkəmizin







müxtəlif coğrafi bölgələrini və ekosistemlərini əhatə edir. Bunlara Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Ağgöl Milli Parkı, Şirvan Milli Parkı, Hirkan Milli Parkı, Altıağac Milli Parkı, Abşeron Milli Parkı, Şahdağ Milli Parkı, Göygöl Milli Parkı, Samur-Yalama Milli Parkı, Qızılağac Milli Parkı, Axar-Baxar Milli Parkı və İlisu Milli Parkı daxildir. Bu parklar Azərbaycanın zəngin təbii irsinin qorunması və təbliği baxımından böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, Dənizkənarı parkda yay boyunca davam edəcək fotosərgidə təqdim olunan şəkillər tanınmış fotoqraflar - İqor Bışnyov, İlya Bışnyov, Natalya Teterevskaya və Nikita Bışnyov tərəfindən çəkilib.

# "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 15-ci, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 18 (Cild I); 2025, № 1, maddə 1, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddə üzrə:

1.1.1. birinci hissədən "hüquq" sözü çıxarılsın;

1.1.2. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanında icra məmurlarının qulluğa qəbulu və qulluq keçməsi bu Qanunla və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Müvafiq icra hakimiyyəti orqanında icra məmurlarının qulluğa qəbulu "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qulluğa qəbulun şərtləri nəzərə alınmaqla müsabiqənin keçirilməsi yolu ilə aparılır. Müsabiqə test imtahanından və söhbətdən ibarətdir. Müsabiqədən uğurla keçmiş namizədlər icra məmuru qismində fəaliyyət göstərmək üçün müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində azı 3 aylıq icbari təlimə cəlb edilirlər. İcbari təlimi müvəffəqiyyətlə bitirmiş namizədlər qulluğa qəbul edilirlər. Müvafiq icra hakimiyyəti orqanında icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Müvafiq icra hakimiyyəti orqanında icra məmurlarına qanunla müəyyən edilmiş qaydada xüsusi rütbə verilir.";

1.2. 12-ci maddə üzrə:

1.2.1. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"İcra və probasiya xidmətləri icra məmurlarının həvəsləndirilməsi və sosial müdafiəsi məqsədilə ədliyyə orqanlarının xüsusi xəzinə hesabının vəsaitindən istifadə edilir.";

1.2.2. üçüncü hissədə "icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər icra xidməti icra məmurlarının xüsusi fonduna" sözləri "halda icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər ədliyyə orqanlarının xüsusi xəzinə hesabının vəsaiti hesabına ödənildikdə həmin xərclərin qaytarılması ilə bağlı vəsait ədliyyə orqanlarının xüsusi xəzinə hesabına" sözləri ilə əvəz edilsin;

1.2.3. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin 43 faizi "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 25-1.2-ci maddəsində göstərilən məqsədlər üçün ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülür.";

1.3. 13-cü maddə üzrə:

1.3.1. birinci hissənin birinci cümləsində "xidmətinin" sözü "və probasiya xidmətlərinin" sözləri ilə, "icra xidməti icra məmurlarının xüsusi fonduna" sözləri "ədliyyə orqanlarının xüsusi xəzinə hesabına" sözləri ilə əvəz edilsin;

1.3.2. ikinci cümlə çıxarılsın.

**Maddə 2.** "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 158-VIIQD nömrəli, 11 aprel tarixli 172-VIIQD nömrəli, 1 may tarixli 189-VIIQD nömrəli və 16 may tarixli 196-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 56.2-ci maddənin birinci cümləsində "icra xidməti icra məmurlarının xüsusi fonduna" sözləri "ədliyyə orqanlarının xüsusi xəzinə hesabına" sözləri ilə əvəz edilsin;

2.2. 78-ci maddə üzrə:

2.2.1. 78.1-ci maddə üzrə:

2.2.1.1. birinci cümlədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

2.2.1.2. ikinci cümlədə "on bir" sözləri "yüz" sözü ilə, "əlli beş" sözləri "beş yüz" sözləri ilə əvəz edilsin;

2.2.2. 78.3-cü maddədə "icra xidməti icra məmurlarının xüsusi fonduna" sözləri "ədliyyə orqanlarının xüsusi xəzinə hesabına" sözləri ilə əvəz edilsin;

2.3. 79.1-ci maddənin ikinci cümləsindən "icra xidməti icra məmurlarının xüsusi fondunun, habelə" sözləri çıxarılsın və həmin cümləyə "şəxslərin" sözündən sonra", bu mümkün olmadıqda ədliyyə orqanlarının xüsusi xəzinə hesabının" sözləri əlavə edilsin;

2.4. 86-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 86. İcra məmurunun həvəsləndirilməsi**

Xidməti vəzifəsinin icrası ilə əlaqədar icra məmuru "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ədliyyə orqanlarının xüsusi xəzinə hesabının vəsaiti hesabına mükafatlandırıla bilər.".

**Maddə 3.** "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab), maddə 502, № 12 (II kitab), maddə 1337) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.8-ci maddədə "vəzifəsinə" sözü "və icra məmuru vəzifələrinə" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 25-1-ci maddə əlavə edilsin:

**"Maddə 25-1. Ədliyyə orqanlarının xüsusi xəzinə hesabı**

25-1.1. Aşağıdakı vəsaitlər ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülür:

25-1.1.1. icra sənədlərinin məcburi icrası ilə bağlı borclunun hesabından tutulan "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 78.3-cü maddəsində nəzərdə tutulmuş icra ödənişinin məbləği, habelə həmin Qanunun 79-cu maddəsində nəzərdə tutulmuş halda icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər ədliyyə orqanlarının xüsusi xəzinə hesabının vəsaiti hesabına ödənildikdə həmin xərclərin qaytarılması ilə bağlı vəsait;

25-1.1.2. cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş məbləği;

25-1.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tabeliyində olan məhkəmə ekspertizası idarələrində məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqq.

25-1.2. Bu Qanunun 25-1.1-ci maddəsində nəzərdə tutulan vəsait aşağıdakı məqsədlərə sərf edilir:

25-1.2.1. ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə;

25-1.2.2. dövlət büdcəsinə köçürülməklə ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə;

25-1.2.3. ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin əlavə təhsilinə, ədliyyə orqanlarının maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə;

25-1.2.4. ədliyyə orqanlarında qulluq keçən (işləyən) və ya əvvəllər qulluq keçmiş (işləmiş) müharibə veteranı adı almış şəxslərin, habelə ədliyyə orqanlarında qulluq keçmiş (işləmiş) şəhid olmuş şəxslərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə;

25-1.2.5. icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin icraatda iştirak edən tərəflərin və digər şəxslərin vəsaitləri hesabına ödənilməsi mümkün olmadıqda həmin xərclərin ödənilməsinə;

25-1.2.6. ədliyyə orqanlarının elmi-texniki potensialının artırılmasına, elmi tədqiqat işlərinin aparılmasına, ədliyyə sahəsində innovativ həllərin öyrənilməsinə və tətbiqinə.

25-1.3. Bu Qanunun 25-1.1-ci maddəsində nəzərdə tutulan vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2015-ci il 13 yanvar tarixli 439 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" 2015-ci il 30 oktyabr tarixli 664 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139-1.1.8-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 15 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-ci hissədə "və kirayə müqavilələrindəki" sözləri ", kirayə müqavilələri, mənzilin verilməsinə dair sərəncamda və dövlət və ya ictimai mənzil fonduna daxil olan mənzilin xüsusi mülkiyyətə verilməsi barədə yerli dövlət hakimiyyəti orqanları, nazirliklər, dövlət komitələri, baş idarələr, müəssisələr, idarələr, təşkilatlar və ya müvafiq kooperativ təşkilatları, həmkarlar ittifaqı təşkilatları, başqa ictimai təşkilatlar ilə hüquq əldə edən arasında notariat qaydasında təsdiq edilmiş müqavilələrdəki" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Bu Fərmanın1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda nəzərdə tutulmuş hüquqmüəyyənedici sənədlər üzrə hüquqların dövlət qeydiyyatına alınması həmin sənədlərin milli arxiv fondunda əsası olduğu halda həyata keçirilir.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı" üzrə:

1.3.1. 1-ci hissə üzrə:

1.3.1.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olduğu dövrdə Azərbaycan Respublikasının ərazisində yaşayış və bağ evləri, habelə onların altında olan və ya belə evlərin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair qüvvədə olmuş qanunvericilikdə nəzərdə tutulan aşağıdakı sənədlər:";

1.3.1.2. 1.3-cü bənd ləğv edilsin;

1.3.1.3. 1.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.8. yaşayış evinin (mənzilin) şəxsin mülkiyyətinə verilməsi barədə zəhmətkeş deputatları sovetləri və xalq deputatları sovetlərinin qərarları (həmin qərarlarda torpaq sahəsinin ölçüsü göstərilmədiyi halda, yaşayış evinin (mənzilin) altında olan torpaq sahəsi nəzərə alınmaqla);";

1.3.2. 2-ci hissə üzrə:

1.3.2.1. birinci abzas, 2.1-ci, 2.3 - 2.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olduğu dövrdə, habelə Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək olan dövrdə Azərbaycan Respublikasının ərazisində yaşayış və bağ evləri, eləcə də onların altında olan və ya belə evlərin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair qüvvədə olmuş qanunvericilikdə nəzərdə tutulan aşağıdakı sənədlər:

2.1. şəhər və rayon xalq deputatları sovetləri tərəfindən verilmiş torpaq sahələrinə mülkiyyət, sahiblik, istifadə hüquqlarına dair dövlət aktları və torpaqdan müvəqqəti istifadə hüququna dair şəhadətnamələr;";

"2.3. 2001-ci il yanvarın 1-dək inşa edilmiş yaşayış evlərinə və (və ya) onların yerləşdiyi torpaq sahələrinə, eləcə də yaşayış evlərinin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair həmin tarixədək verilmiş təsərrüfatbaşına kitablarından çıxarış və ya həmin çıxarışlar əsasında verilmiş arayışlar;

2.4. yaşayış və bağ evlərinə dair texniki inventarlaşdırma orqanları tərəfindən 2001-ci il yanvarın 1-dək tərtib olunmuş texniki pasportlar (müvafiq tikililərin yerləşdiyi həyətyanı torpaq sahələrinin ölçüsü göstərildiyi halda);

2.5. yaşayış evlərinin və bağ evlərinin tikintisi üçün həyətyanı torpaq sahələrinin verilməsi barədə kolxoz üzvlərinin ümumi yığıncağının və ya müvəkkillərinin yığıncağının qərarı, yaxud həyətyanı torpaq sahəsi barədə qaytanlanmış torpaq kitablarından çıxarış;";

1.3.2.2. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. sovxoz və ya dövlət orqanlarının tabeliyində olan digər kənd təsərrüfatı müəssisəsi rəhbərinin (direktor və s.) əmri, yaxud həyətyanı torpaq sahəsi barədə qaytanlanmış torpaq kitablarından çıxarış;";

1.3.2.3. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. yaşayış evinin tikintisi məqsədilə həyətyanı torpaq sahəsinin ayrılması barədə yerli icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələri tərəfindən 2001-ci il yanvarın 1-dək qəbul edilmiş qərarlar;";

1.3.2.4. aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. yaşayış evi tipli mənzillərin sökülərək yerində fərdi yaşayış evinin inşa olunması barədə yerli icra hakimiyyəti orqanları tərəfindən verilmiş qərarlar və fərdi yaşayış evinin yerli icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihəsi (layihədə torpaq sahəsinin ölçüsü göstərildikdə. Layihə olmadığı və ya həmin layihədə torpağın ölçüsü göstərilmədiyi hallarda yaşayış evi və onun altında olan torpaq sahəsi əsas götürülməklə).".

2. "Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 30 oktyabr tarixli 664 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1136 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2025-ci il*

# "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin altıncı cümləsində ikinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin birinci, ikinci, altıncı (birinci halda) və yeddinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

1.3. həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin dördüncü cümləsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;

1.4. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 25-1.1.3-cü və 25-1.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 25-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti (vəsaitin bölgüsünə münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.6. həmin Qanunun 25-1.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin altıncı cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

2.2. bu Fərmanın 1.5-civə 5.3-cü bəndləri nəzərə alınmaqla, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 25-1.3-cü maddəsinə uyğun olaraq, ədliyyə orqanlarının xüsusi xəzinə hesabına köçürülən vəsaitdən istifadə qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. "İcra məmurları haqqında", "İcra haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 223-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 25(Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd 2.1-1-ci bənd hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

"2.1-1. həmin Qanunun 11-ci maddəsinin dördüncü hissəsində və beşinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.2. aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin ikinci hissəsinin altıncı cümləsində ikinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.3. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin birinci, ikinci, altıncı (birinci halda) və yeddinci cümlələrində, 5-ci maddəsinin birinci və yeddinci hissələrində, 6-cı maddəsinin adında və mətnində, 8-ci maddəsinin birinci hissəsinin on altıncı abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;";

3.4. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 3-cü maddəsinin ikinci hissəsinin dördüncü cümləsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;";

3.5. 2.4-cü bənddən ", 12-ci maddəsinin ikinci hissəsində" sözləri çıxarılsın;

3.6. 2.5-ci bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.6-cı bənd ləğv edilsin.

4. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 672 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 122 (Cild I); 2025, № 6, maddə 544) 2.5-ci bəndi ləğv edilsin.

5. "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 594 (Cild I); 2024, № 5 (I kitab), maddə 523, № 12 (II kitab), maddə 1358) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bənddə birinci halda "maddəsində" sözü", 25-1.1.3-cü,25-1.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 2.1-2-ci və 2.5-1-ci bəndlər əlavə edilsin:

"2.1-2. həmin Qanunun 25-1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti (vəsaitin bölgüsünə münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"2.5-1. həmin Qanunun 25-1.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;";

5.3.2.10-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun vəaşağıdakı məzmunda 2.11-ci bənd əlavə edilsin:

"2.11. həmin Qanunun 25-1.1-ci maddəsində nəzərdə tutulan vəsait aşağıdakı kimi bölüşdürülür:

2.11.1. 60 faizi dövlət büdcəsinə köçürülməklə həmin vəsait tam həcmdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən ədliyyə orqanlarının xüsusi rütbəsi olan əməkdaşlarının və digər işçilərinin aylıq vəzifə maaşlarına əlavənin verilməsinə sərf edilir;

2.11.2. bu Fərmanın 2.11.1-ci yarımbəndi nəzərə alınmaqla, qalan hissəsi həmin Qanunun 25-1.2.1-ci, 25-1.2.3-25-1.2.6-cı maddələrində nəzərdə tutulan məqsədlərə sərf edilməsi üçünAzərbaycan Respublikası Ədliyyə Nazirliyinin hesabına köçürülür.".

6. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 673 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1223 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 iyul tarixli 429 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.10-cu bəndində "vəzifəsinə" sözü "və icra məmuru vəzifələrinə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 9, maddə 998; 2025, № 4 (I kitab), maddə 333) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.3. 1.8-ci yarımbəndə ikinci halda "faizindən" sözündən sonra "(Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahəsinin qiymətinin 90 faizindən)" sözləri əlavə edilsin.

2.3.1.10-cu yarımbəndin birinci cümləsinə "faizindən" sözündən sonra "(Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşayış sahəsinin alınması məqsədilə verilən kredit məbləği üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin 75 faizindən)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2025-ci il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 229 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 210**

**Bakı şəhəri, 15 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 44-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 229 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 188 (Cild I); 2024, № 1, maddə 111; 2025, № 1, maddə 90) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi xüsusiyyətləri, habelə "Fərqlənmə nişanı" və "Xüsusi fərqlənmə nişanı"nın tətbiq edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bənd üzrə:

1.1.1. birinci cümlədən "və yük" sözləri çıxarılsın və həmin cümləyə "Xüsusi fərqlənmə nişanı" sözlərindən sonra ", habelə yük daşımalarını həyata keçirən vergi ödəyicilərinə "Xüsusi fərqlənmə nişanı" sözləri əlavə edilsin;

1.1.2. ikinci cümlədən "və yük" sözləri çıxarılsın;

1.2. 2.1-ci, 3.3-cü, 3.8-ci və 3.9-cu bəndlərdən "və yük" sözləri çıxarılsın;

1.3. 2.2-ci bənddən (hər iki halda) "və ya yükgötürmə qabiliyyəti" sözləri çıxarılsın və həmin bənddə "göstəriciləri" sözü "göstəricini" sözü ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. Yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən vergi öhdəliyi Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş ümumi qaydada yerinə yetirilir. Fərdi qaydada (muzdlu işçi cəlb etmədən) avtomobil nəqliyyatı vasitəsi ilə yük daşıma fəaliyyəti üzrə "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.5.7-ci və 14.5.1-2-ci maddələrində nəzərdə tutulmuş qaydada məcburi dövlət sosial sığorta haqqı ödənilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.1.4.3.1.4-cü və 1.1.4.3.2.2-ci yarımmaddələrindən "və yük" sözləri çıxarılsın.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 211**

**Bakı şəhəri, 15 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 281 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470, № 11, maddə 1263) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"na aşağıdakı məzmunda 3.2-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 3.2. | "Milli Məkan Məlumatları" informasiya sistemi |

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 212**

**Bakı şəhəri, 15 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 17 dekabr tarixli 250 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 iyun tarixli 177 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı"na aşağıdakı məzmunda 12.1.3-cü yarımbənd əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 12.1.3. | Dincə qoyulmuş torpaq subsidiyasının verilməsi | 09 | 01 | 01 | 031 |

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 213**

**Bakı şəhəri, 15 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 238 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 12 yanvar tarixli 3 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 74 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və 1-ci hissədə "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların" sözləri "Bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması Qaydaları" üzrə:

2.1. adında və 1-ci hissənin birinci cümləsində "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların" sözləri "Bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə, ikinci cümləsində isə "Müəssisə və təşkilatlar" sözləri "Hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

2.2. 2-ci hissədə "bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatlar" sözləri "bələdiyyələrə məxsus hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

2.3. 4-cü və 5-ci hissələrdə "Bələdiyyələrin tabeliyində olan müəssisə və təşkilatlar" sözləri "Bələdiyyələrə məxsus hüquqi şəxslər" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*



# Azərbaycanın sülh sazişinin imzalanması üçün irəli sürdüyü şərtlər beynəlxalq hüquqa əsaslanır

**Cənubi Qafqazda davamlı sülhün əldə olunması üçün rəsmi Bakının təşəbbüsü və cəhdi ilə irəliyə doğru mühüm yol qət edilib. Ermənistan ilə Azərbaycan liderlərinin Əbu-Dabi şəhərində keçirilən görüşü isə sülh müqaviləsinin imzalanmasına tezliklə nail olunacağına ilə bağlı böyük ümidlər yaradıb.**

Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən həmin görüşdə sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh sazişinin paraflanması ilə bağlı müzakirələr aparılıb. İkitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.

### Beynəlxalq birliyin dəstəyi

İki ölkə arasında sülh istiqamətində əldə olunan müsbət irəliləyişlərə beynəlxalq birlik tərəfindən böyük dəstək oldu. Əbu-Dabidə Ermənistan ilə Azərbaycan liderlərinin ikitərəfli görüşündən dərhal sonra ABŞ tərəfindən bölgədə sülh səylərinin dəstəkləndiyi ilə bağlı açıqlama verildi. ABŞ Dövlət Departamentinin sözçüsü Temmi Bryus mətbuat konfransında bildirib ki, ölkəsi Cənubi Qafqazda sülhün və sabitliyin təşviqi üzrə səyləri dəstəkləyir.

Bir neçə gün əvvəl isə ABŞ Prezidenti Donald Tramp Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə uğurla və birdəfəlik həll olunacağına inandığını bildirib. Bu barədə amerikalı lider Vaşinqtonda NATO-nun Baş katibi Mark Rutte ilə keçirdiyi mətbuat konfransında deyib. Onun sözlərinə görə, ABŞ Ermənistanla Azərbaycan arasında münaqişənin həlli üçün səylər göstərib və bu, yaxşı nəticəyə gətirib çıxaracaq.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreş də iki ölkə lideri arasında keçirilən Əbu-Dabi görüşünü bölgədə dayanıqlı sülhə gedən yolda ciddi irəliləyiş, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə əldə olunan razılığın möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addım kimi dəyərləndirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Məhəmməd bin Zayed Əl-Nəhyanla telefon danışığı zamanı deyib ki, Türkiyə Azərbaycan və Ermənistan arasında Əbu-Dabidə keçirilən sülh danışıqlarını diqqətlə izləyir: "Türkiyə Qafqazda sülhün təmin edilməsi üçün səyləri dəstəkləməyə davam edəcək".

"Biz Ermənistanın Cənubi Qafqazda sabitliyi təmin etmək səylərini, xüsusən də Azərbaycanla sülh danışıqlarında iştirakını və Türkiyə ilə münasibətlərin normallaşması istiqamətində atdığı addımları yüksək qiymətləndiririk". Bu isə Avropa İttifaqı Şurasının prezidenti Antonio Kostanın fikridir.

### Sülh yeganə seçimdir

Son beş ilə yaxın zaman dilimində Azərbaycanın davamlı sülh səyləri müsbət nəticələr əldə olunmasına rəvac verib. Sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə artıq start verilib, sərhəd dirəklərinin quraşdırılmasına başlanılıb. Qazax rayonunun işğal altında olmuş Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri qaytarılıb. İki ölkə arasında 12,7 kilometrlik dövlət sərhədi razılaşdırılıb.

Bu ilin mayında Azərbaycan ilə Ermənistan arasında sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesinin yekunlaşdığı barədə hər iki ölkə tərəfindən rəsmi məlumat verilib.

Torpaqlarının işğalı dövründə onilliklər boyu böyük səbir və təmkin nümayiş etdirərək münaqişənin danışıqlar yolu ilə həll olunmasına tərəfdar çıxan Azərbaycan postmünaqişə dövründə də sülh gündəliyinə sadiqlik nümayiş etdirir. Rəsmi Bakı bölgədə təhlükəsizliyin, sabitliyin nəhayət bərqərar olması üçün mühüm təşəbbüslərlə çıxış edir, normallaşmaya nail olunması üçün xüsusi səylər göstərir. Beynəlxalq hüququn tələblərinə uyğun olaraq milli maraqlarını tam təmin edən və sürətlə hərtərəfli sahələrdə inkişaf edən Azərbaycan bölgənin lider ölkəsi olmaqla yanaşı, qlobal məsələlərin həllində vacib rol oynayan aktora çevrilib. Bu mənada sülh müqaviləsinin tezliklə imzalanmasının təcavüzkar siyasəti nəticəsində özünü 30 ildir dalan ölkəyə çevirən Ermənistana daha çox lazım olduğu da gün kimi ortadadır. Lakin 44 günlük Vətən müharibəsindən ötən müddətdə də yaşananlar göstərdi ki, İrəvan xarici havadarlarına güvənərək hansısa xam xəyallara qapılmışdı və sülh prosesindən yayınırdı. Ancaq sülh təşəbbüsçüsü kimi çıxış edən Azərbaycan atdığı qətiyyətli addımlarla, yürütdüyü sərrast diplomatiya ilə ortaya qoydu ki, yerləşdiyi coğrafi bölgənin yenidən münaqişə, müharibə ocağına çevrilməsinə qətiyyən imkan verməyəcək və Ermənistanın sülhdən başqa yolu yoxdur.

### Bölgədə de-fakto sülh mövcuddur

Məhz Azərbaycanın sülh prosesinə liderlik etməsinin nəticəsidir ki, Cənubi Qafqaz artıq münaqişə bölgəsi hesab edilmir. Bu da onu deməyə əsas verir ki, regionda artıq de-fakto sülh əldə edilib, sadəcə, bunu hüquqi çərçivəyə salmaq, sülh müqaviləsini imzalamaq lazımdır.

Bunun üçün isə Azərbaycan tərəfinin beynəlxalq hüququn tələblərinə uyğun irəli sürdüyü tələblər yerinə yetirilməlidir. İlk növbədə Ermənistan Azərbaycana qarşı ərazi iddiaları olan konstitusiyasını dəyişdirməlidir. ATƏT-in keçmiş Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət ünvanlamalıdır. Həmçinin Aİ missiyası adı altında bölgədə yerləşdirilən üçüncü ölkələrin qüvvələri çıxarılmalıdır.

Vurğuladığımız kimi, rəsmi Bakının irəli sürdüyü bu tələblər beynəlxalq hüquqa dayanır və əgər Ermənistan sülh müqaviləsini imzalamaqda maraqlıdırsa, bu tələbləri şərtsiz yerinə yetirməlidir. Çünki əgər bu tələblər yerinə yetirilmədən sülh müqaviləsi imzalanarsa, bu, gələcəkdə Ermənistanın ölkəmizə qarşı ərazi iddiası güdməsinə, iki ölkə arasında yenidən münaqişəyə zəmin yaradar ki, Azərbaycan buna qətiyyən icazə verməyəcək.

Son iki ildə Ermənistan ilə Azərbaycan arasında sülh prosesi çərçivəsində irəliyə atılan addımlar, iki ölkə liderinin vasitəçilərə ehtiyac görmədən görüşmələri, eyni zamanda Azərbaycanın şərtlərinin yerinə yetiriləcəyi ilə bağlı İrəvan tərəfindən verilən müəyyən açıqlamalara əsasən, onu demək olar ki, prinsip etibarilə hazırda iki ölkə sülh müqaviləsini imzalamağa çox yaxındır. Sadəcə, İrəvan sonacan konstruktivlik nümayiş etdirməli, siyasi iradə ortaya qoymalıdır.

Rəsmi Bakının mövqeyi isə qəti və aydındır: bölgədə davamlı və dayanıqlı sülhün əldə edilməsi üçün beynəlxalq hüququn prinsip və çərçivələrinə uyğun irəli sürülən şərtlər yerinə yetirilməlidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 214**

**Bakı şəhəri, 15 iyul 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 264 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 66 (Cild I); 2024, № 1, maddələr 96, 110; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 17 aprel tarixli 113 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2.3-cü yarımbənddən "və uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair iştirakçılar tərəfindən hər il yanvar ayının 15-dək Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə təqdim edilmiş illik hesabatların toplanması və ya onlar tərəfindən bu hesabatların elektron kabinetləri vasitəsilə daxil edilməsi" sözləri çıxarılsın.

2. 3.2.4-cü yarımbənddə "EHİS-ə" sözü "Elektron Hökumət İnformasiya sisteminə (bundan sonra - EHİS)" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

**Xəzərin birləşdirdiyi dost ölkələr - Azərbaycan və Türkmənistan tarixi və mədəni əlaqələrlə bir-birinə sıx bağlıdır. Son illər bu münasibətlər təkcə dostluqla yox, iqtisadi əməkdaşlığın real nəticələri ilə də diqqət çəkir. Neft, qaz, nəqliyyat, logistika və kənd təsərrüfatı kimi sahələrdə ortaq layihələr, birgə təşəbbüslər və strateji əməkdaşlıq regionda sabitlik və inkişafın əsas dayaq nöqtələrindən birinə çevrilib.**



# Azərbaycan-Türkmənistan: körpüsü Xəzər olan dost ölkələr

İki ölkə arasında iqtisadi əməkdaşlığın təməli Sovet İttifaqının dağılmasından sonra qoyulub. 1991-ci ildə müstəqillik qazanan respublikalar yeni geosiyasi reallıqlar qarşısında dayansa da, ortaq tarix, dil və mədəniyyət onların qarşılıqlı əlaqələrinin tez bir zamanda qurulmasına zəmin yaratdı. İlk illər münasibətlər əsasən diplomatik səviyyədə olsa da, çox keçmədi ki, konkret iqtisadi addımlar atılmağa başladı. Azərbaycan və Türkmənistan arasında ilk ticarət sazişləri imzalandı, gömrük və nəqliyyat sahəsində qarşılıqlı razılaşmalar əldə edildi. Bu sənədlər ikitərəfli ticarətin hüquqi bazasını formalaşdırdı. Bu gün Azərbaycan Türkmənistandan əsasən karbamid (kimyəvi gübrə), pambıq, neft və tekstil məhsulları idxal edir. Türkmənistana isə qida məhsulları, tikinti materialları, avadanlıq və maşınlar ixrac olunur.

Azərbaycan və Türkmənistan arasında iqtisadi əlaqələrin genişlənməsində Xəzər dənizi körpü rolunu oynayır. Dəniz üzərindən qurulan nəqliyyat və enerji marşrutları iki ölkəni ticarət və logistika sahəsində strateji tərəfdaşlara çevirib. Həm Azərbaycan, həm də Türkmənistan neft-qaz ehtiyatlarını Xəzər üzərindən dünya bazarlarına çatdırmaq üçün müxtəlif yollardan istifadə edirlər. Bu kontekstdə Xəzər həm resursların hasilatı, həm də onların tranziti baxımından həlledici əhəmiyyət kəsb edir. Türkmənistanın zəngin qaz ehtiyatlarını Azərbaycan üzərindən Avropa bazarına çatdırmaq arzusu, Azərbaycanın isə bu tranzitdən geosiyasi və iqtisadi fayda əldə etmək istəyi hər iki ölkəni ortaq maraqlar ətrafında birləşdirir.

Qeyd edək ki, 2021-ci ildə Azərbaycan və Türkmənistan Xəzər dənizində yerləşən "Dostluq" yatağı üzərində ortaq işləməklə bağlı mühüm razılığa gəliblər. Əldə olunan razılıq iki ölkə arasında enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Uzun illər mübahisə predmeti olmuş "Dostluq" yatağı status baxımından qeyri-müəyyən ərazi kimi tanınırdı. Lakin qeyd etdiyimiz razılaşma göstərdi ki, Azərbaycan və Türkmənistan qarşılıqlı etimada əsaslanan əməkdaşlıq əsasında səmərəli iqtisadi münasibətlər qurmaqda qərarlıdırlar. Yataq birgə istismar ediləcək ilk Xəzər qaz layihəsi olaraq, hasilat və resursların bölüşdürülməsi sahəsində birgə məsuliyyət daşıyacaq.

Xəzər dənizinin dibi ilə çəkilməsi planlaşdırılan qaz kəməri illərdir gündəmdə olsa da, son dövrlər regionda yaranan reallıqlar, yəni Avropanın enerji təhlükəsizliyi, alternativ marşrutlara olan tələbat və Orta dəhlizin aktuallaşması bu layihəyə yeni nəfəs verib. Azərbaycan artıq geniş qaz nəqli infrastrukturuna, o cümlədən "Cənub qaz dəhlizi" kimi mühüm enerji arteriyalarına sahibdir. Bu, Türkmənistan qazının dünya bazarlarına çıxarılmasında Bakının rolunu artırır. Eyni zamanda iki ölkə arasındakı neft məhsullarının emalı və tranziti sahəsində əməkdaşlıq da diqqətəlayiqdir. Türkmənistan öz xam neftinin bir hissəsini Azərbaycan üzərindən Gürcüstana və daha sonra Qara dəniz limanlarına çatdırmaq üçün Bakı-Tbilisi dəmir yolu və Bakı limanından istifadə edir. Azərbaycan da öz neft-kimya sənayesi və emal zavodları ilə Türkmənistan üçün mühüm tərəfdaş rolunu oynayır. Bu əməkdaşlıq həm iki ölkə üçün əlavə iqtisadi dividendlər yaradır, həm də Xəzər hövzəsində sabitliyin və qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir.

Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənistanın Türkmənbaşı Limanı Xəzər hövzəsində ticarətin əsas tranzit nöqtələridir. Ölkələrimiz arasında müntəzəm bərə keçidləri və dəmiryolu daşımaları Orta dəhliz layihəsinin vacib halqasıdır. Bu tranzit əlaqələri təkcə iki ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında uzanan strateji ticarət marşrutlarının qurulmasında mühüm rol oynayır. Xüsusən beynəlxalq nəqliyyat və logistika xətti olan Çin, Mərkəzi Asiya ölkələri, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə və Avropaya uzanan yol Azərbaycan və Türkmənistan üçün yeni iqtisadi imkanlar açır. Bakı və Türkmənbaşı limanları bu dəhlizdə əsas logistik mərkəzlər kimi çıxış edir. Son illər hər iki limanda yeni terminal binalarının tikilməsi, yükləmə-boşaltma avadanlıqlarının yenilənməsi və rəqəmsallaşma tədbirləri bu mərkəzlərin qlobal standartlara uyğunlaşmasına səbəb olub. Limanlarda aparılan genişmiqyaslı modernizasiya işləri Xəzər üzərindən yüklərin daşınmasının daha sürətli və etibarlı şəkildə həyata keçirilməsinə zəmin yaradır.

Xəzərdə müntəzəm bərə keçidləri vasitəsilə həm konteyner daşınır, həm də avtomobil və dəmir yolu nəqliyyatı təşkil olunur. Bu nəqliyyat xəttinin etibarlılığı və çevikliyi Azərbaycan və Türkmənistanın beynəlxalq ticarətdə tranzit ölkə statusunu möhkəmləndirir. Hər gün həmin marşrutla onlarla konteyner, yük avtomobili və dəmir yolu vaqonları daşınır. Bu da Xəzərin təkcə enerji deyil, eyni zamanda logistika və ticarət arteriyası olduğunu göstərir. Xəzər dənizi Azərbaycan və Türkmənistan arasında iqtisadi əlaqələrin həm maddi əsası, həm də simvolik məzmunudur. Dəniz iki ölkəni ayırmır, əksinə, qovuşdurur, əməkdaşlığa təşviq edir və daha böyük regional inteqrasiyanın açarı kimi çıxış edir.

Hazırda iqtisadi əməkdaşlıq çərçivəsində Azərbaycan və Türkmənistan yalnız ənənəvi sahələrlə kifayətlənməyib yeni perspektivli sahələrdə də birgə fəaliyyət göstərmək niyyətindədirlər. İki ölkə arasında sənaye parkları yaratmaq, bərpaolunan enerji sahəsində birgə layihələr hazırlamaq və qarşılıqlı investisiyalar qoymaq kimi təşəbbüslər gündəmdədir. Azərbaycan və Türkmənistan bu əməkdaşlıqla təkcə iqtisadi deyil, həm də siyasi və geostrateji güclərini artırırlar.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# "Azərbaycana qarşı təkəbbürlü davranış keçmir və keçməyəcək"

**"Rusiyanın Azərbaycana təzyiq cəhdləri iki amillə bağlıdır. Birincisi, Kremldəkilər bununla Azərbaycan və Ermənistan arasında ikitərəfli format çərçivəsində keçirilən və sülh anlaşmasını yaxınlaşdıran danışıqlardan narazılıqlarını ortaya qoyurlar. Bununla Moskva artıq neçənci dəfədir təsdiqləmiş olur ki, bu regionda qonşu dövlətlər arasında normal əlaqələrin qurulmasını, sülhün yaranmasını özünün "parçala, hökm sür" siyasətinin sonu sayır və belə bir perspektivlə heç cür razılaşmaq istəmir".**

"Azərbaycan" qəzetinə açıqlama verən Milli Məclisin deputatı Sahib Alıyevin sözlərinə görə, Kremldəkiləri qıcıqlandıran ikinci amil Azərbaycanın sərnişin təyyarəsini Qroznı üzərində vuran Rusiyanın təkəbbürlü və ləyaqətsiz davranışlarına dövlətimizin göz yummaması, bu ölkədəki güc strukturlarının oradakı soydaşlarımızla vəhşicəsinə davranışlarını cavabsız qoymaması, bununla da İkinci Qarabağ savaşından sonra növbəti presedent yaratmasıdır: "İmperiya sindromundan qurtula bilməyənlər digər MDB ölkələrinin də oxşar məsələlərdə Azərbaycan kimi davranacaqlarından əndişələnirlər. Ona görə də ağına-bozuna baxmadan, dəlicəsinə davranırlar. Əlbəttə, təkcə beynəlxalq normaları deyil, yazılmamış qaydaları belə ayaq altına salıb tapdalayan bir rejimin burada imic baxımından onsuz da itirəcəyi heç nə yoxdur, çünki imicləri onsuz da süpürgəliyin altındadır. Amma bu cür siyasət Moskvaya Qafqazın tək bu tərəfində deyil, o tərəfində də çox baha başa gələ bilər".

Deputat sual edir: "Geosiyasi fəlakət adlandırdıqlarının nəticələrini aradan qaldırmaq sevdasına düşənlər Bakı Təşəbbüs Qrupunun dekolonizasiya yönündəki ardıcıl fəaliyyəti nəticəsində Yeni Kaledoniyanın necə müstəqillik qazanma şansı əldə etdiyini görmürlərmi?" Cavab da budur ki, imperiya mərəzindən qurtula bilməyənlər sərhədlərindən minlərlə kilometr uzaqda yaşayan xalqların azadlıq əldə etmələrinə önəmli töhfə verməyi bacaran bir dövlətlə bu cür davranışların nəyə aparıb çıxara biləcəyini anlamırlarsa, bu onların problemidir. Onlar unutmamalıdırlar ki, Azərbaycan özünü böyük sayanlardan yüksəkdə durduğunu son zamanlar atdığı addımlarla dəfələrlə təsdiqləyib və bu, yumşaq gücün tətbiqi məsələsində də keçərlidir".



S.Alıyev imperiyanın bərpa cəhdləri ilə bağlı qeyd edib ki, Ulu Öndər Heydər Əliyev hələ SSRİ mövcudkən - 1991-ci il martın 7-də bu salonda "əgər digər respublikalar İttifaqda qalsalar belə, Azərbaycan oradan çıxmalı, onlarla ikitərəfli əlaqələr qurmalıdır" demişdir. Sonra da əlavə edib ki, Ağdamda Muğam Mərkəzinin açılışındakı çıxışında indiyə kimi Heydər Əliyev yolundan bir addım belə kənara çıxılmadığını bildirən, almaz iradəli bir lider - cənab İlham Əliyevə müstəqilliyimizi sual altında qoyan nəsə sırımaq mümkündürmü? "Müzəffər Ali Baş Komandanımız Rusiya və hazırda onunla üz-üzə duran əksər böyük dövlətlərin qarşı çıxmalarına rəğmən, savaş yoluyla torpaqlarımızı işğaldan qurtarıb üzərində suverenliyimizi tam təmin edib", - deyə siyasətçi bildirib.

Onun sözlərinə görə, Bakıda aparılan İsrail-Suriya danışıqları, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın ölkəmizə səfəri, Laçında üç liderin dünyaya səs salan görüşləri, İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən Zirvə görüşü, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidəki ikitərəfli, tamformatlı Azərbaycan-Ermənistan danışıqları artıq "Zaqafqaziya" olmadığını göstərir: "Dağlıq Qarabağ"ın statusu kimi o da hara lazımdır ora göndərilib".

Deputat vurğulayıb ki, bu gün Azərbaycan Yaxın Şərq kimi böyük coğrafiyada təsir gücü get-gedə artan önəmli bir oyunçu kimi çıxış edir. Bütün bu reallıqlara dayanaraq Azərbaycanla təkəbbürlü davranış nəinki keçmir və keçməyəcək, indiki kimi cavabsız da qoyulmayacaq".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Zəngəzur dəhlizi məsələsində ortaq məxrəcə gəlmək mümkün olacaqmı?

## Azərbaycan və Ermənistan arasında danışıqlar, böyük güclər arasında isə mübarizə gedir

**Yeni dünya düzəninin qurulmasında qlobal ticarət marşrutlarına nəzarət ön plana çıxıb. Bu, qlobal güclərin əlində təsir vasitəsinə çevrildiyi üçün hazırda mövcud və yeni yaranan dünya əhəmiyyətli ticarət yollarına nəzarəti ələ keçirmək uğrunda ciddi rəqabət gedir.**

Məlum olduğu kimi, dünya ticarətinin 80 faizə qədəri okean və dənizlər üzərindən həyata keçirilir. Bu marşrutlara isə dünyada ən böyük hərbi donanması olan ABŞ nəzarət edir. Amma belə hal Çini qane etmir. Ona görə ki, ÇXR ticarətinin çox hissəsini okean və dənizlər üzərindən həyata keçirir. Son dövrlər Çinin hərbi-dəniz donanmasının gücləndirilməsi istiqamətində gördüyü işlər də buna bağlıdır. "Əjdahalar ölkəsi" hərbi təyyarə daşıyan gəmilərinin sayını artırmaq üçün gecə-gündüz çalışır. Hətta onların bu cür gəmiləri sürətlə inşa edib suya buraxması ABŞ-də heyrətlə qarşılanır.

ÇXR-də başa düşürlər ki, ABŞ-lə açıq okean və dənizlərdə müharibə olarsa, xarici ticarəti iflasa uğrayacaq, bu isə Çinin sonu ola bilər: Çünki bu ölkə dünyanın ən nəhəng məhsul istehsalçısıdır. İstehsal etdiyi çoxsaylı və çeşidli məhsulların satışı dayansa, ölkə iqtisadiyyatı çökər və onun bərpası üçün illərlə vaxt lazım olar. Elə ABŞ-nin də Çinin inkişafını durdurmaq üçün istədiyi budur.

Yaranmış mürəkkəb vəziyyətdən çıxış üçün Çin "Bir kəmər, bir yol" layihəsi ilə çıxış etdi. Bu layihə dünyanın bütün ərazilərinə ixrac mallarının tez və təhlükəsiz çatdırılmasını özündə ehtiva edir. Həmin layihənin ən əhəmiyyətli və təhlükəsiz qolu isə Orta dəhlizdir.

Çin okean və dənizlər üzərindən ticarəti azaltmaq məqsədilə Orta dəhlizdən başqa, Çin-Pakistan və İran marşrutunu da yaradır. Milyardlarla dollar tələb olunan layihənin icrasına artıq başlanıb və bu istiqamətdə müəyyən işlər görülür. Çinlilərin sürətlə işləmək qabiliyyətini nəzərə alsaq, bu layihənin tezliklə tamamlanması o qədər də çox vaxt aparmayacağına inanmaq olar.

Orta dəhliz okeanlardan fərqli olaraq suveren dövlətlərin ərazisindən keçir və tranzit ölkələrin iqtisadi maraqlarına cavab verir. Bu üzdən həmin marşrutun təhlükəsizliyində bütün tranzit ölkələri maraqlıdır və belə hal Çini də tam qane edir. Digər tərəfdən, bu marşrut həm təhlükəsizdir, həm də yüklərin Çindən Avropaya daşınmasında qısa yoldur. Üstəlik, Azərbaycan dövlətinin apardığı logistika siyasəti sayəsində Qazaxıstan, Azərbaycan və Gürcüstanın yaratdığı Trans-Xəzər Nəqliyyat Marşrutu yükgöndərən və yük qəbul edən tərəflər üçün kommersiya baxımından əlverişli şərtlər təklif edir ki, bu da marşrutun cəlbediciliyini və səmərəliliyini artırır.

Ermənistan öz siyasi kaprizləri və kənar qüvvələrin təsiri ilə uzun müddət Zəngəzur dəhlizinin açılması barədə qərar qəbul edə bilmirdi. Xüsusən İranın qonşu ölkə üzərində olan təsir imkanları bu məsələdə önəmli rol oynayırdı. İranın tez-tez "sərhədlərin dəyişilməzliyi qırmızı xəttimizdir" bəyanatlarının Ermənistana qarşı yönəlmiş tələ olduğunu İrəvanda nəhayət ki, anladılar. Başa düşdülər ki, bu bəyanatlar fonunda İran Azərbaycana Zəngəzur dəhlizinə alternativ olaraq Araz dəhlizini təklif edir. Həmin təklifi ölkəmizin milli maraqlarına uyğun olduğu üçün qəbul etdik və saziş bağladıq. Bu sazişdən sonra İrəvan da "yetimə can-can deyən çox olar, çörək verən az olar" atalar sözlərinin nə qədər doğru olduğunu anladı.

İrəvanda başa düşdülər ki, dəhlizə nəzarətlə bağlı maraqlı tərəflər yalnız öz mənfəətləri barədə düşünürlər. Belə olan halda Ermənistan Zəngəzur dəhlizi ilə bağlı siyasətini korrektə etmək məcburiyyətində qaldı. Bu sahədə ilk müsbət addım Nikol Paşinyanın Türkiyəyə səfərindən sonra atıldı və Əbu-Dabidə Prezident İlham Əliyevlə 5 saatlıq görüşündən sonra qətiləşdi. Prezident İlham Əliyevin bu vaxta qədər İrəvana göstərdiyi diplomatik təzyiqlər öz müsbət nəticəsini verdi.

Amma Ermənistan Zəngəzur dəhlizinin açılmasında daxildə də ciddi müqavimətlə rastlaşır. Pevanşist müxalifət bunu ölkənin suverenliyinə qəsd kimi qiymətləndirir və kütləni buna inandırmağa çalışır. Digər tərəfdən, xarici qüvvələr də bu ölkəyə zəif bənd olduğu üçün təsir göstərmək istəyir. Ona görə də qonşu ölkənin qəti qərar qəbul etməsi bu qədər çətinləşib.

Prezident İlham Əliyevlə Nikol Paşinyanın görüşündən sonra Zəngəzur dəhlizi ətrafında siyasi mübarizə daha da güclənib. İlk reaksiya Rusiyadan gəldi. Şimal qonşumuz Zəngəzur dəhlizinə nəzarət etməsi barədə ümidləri boşa çıxa biləcəyindən ehtiyatlanaraq tez-tez Ermənistana və Azərbaycana 10 noyabr bəyanatının 9-cu maddəsini xatırladır. Çünki iki ölkə arasında aparılan danışıqlar təkcə şimal qonşumuzun vasitəçilik funksiyasını deyil, həm də dəhlizə nəzarət etmək imkanlarının itirilməsi deməkdir. Artıq Rusiyanın Ermənistana müəyyən təzyiqləri başlayıb, xüsusən daxildəki qüvvələrin N.Paşinyan iqtidarına qarşı ayağa qaldırıldığı açıq görünür.

ABŞ-nin Türkiyədəki səfiri Tom Barrakın son bəyanatı da şimal qonşumuzu çox qıcıqlandırıb. Bəyanatda irəli sürülən təklif şimal qonşumuzu qətiyyən qane etmir. Xatırladaq ki, sözügedən bəyanatda Zəngəzur dəhlizinin neytral kommersiya şirkəti tərəfindən 100 illiyə idarə olunması irəli sürülüb. Ancaq Rusiyada başa düşürlər ki, "neytral kommersiya şirkəti vasitəsi" deyilsə də, əslində dəhlizə ABŞ nəzarət edəcək.

Rusiya Dövlət Dumasının qatı erməni təəssübkeşi, anti-azərbaycançı, MDB işləri üzrə komitə sədrinin birinci müavini Konstantin Zatulin deyir: "ABŞ-nin Türkiyədəki səfiri Tom Barrakın Ermənistanla Azərbaycan arasında nəqliyyat dəhlizinin 100 illik icarəyə götürülməsi və bu yolla danışıqlara təkan verməsi təklifi sadəcə blef deyil, real plan ola bilər". K.Zatulin ABŞ səfirinin bəyanatının arxasında Azərbaycan və Ermənistan rəhbərlərinin razılığının olduğunu da xüsusi vurğulayır. Üstəlik, son dövrlər Azərbaycanla Ermənistanın Rusiya ilə münasibətlərinin kəskinləşməsini də Zəngəzur dəhlizindən Rusiyanın kənarlaşdırılması ilə əlaqələndirir.

Ancaq RF istəsə də, istəməsə də, Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Çünki Rusiya-Ukrayna müharibəsi şimal qonşumuzun Avropa və Asiya bazarlarına olan çıxışını bağlayıb. Müharibə getdiyi üçün avtomobil və dəmir yolu ilə yanaşı, Qara dənizlə yüklərin daşınması da demək olar ki, dayanıb.

Çin siyasəti isə Rusiyadan fərqlənir. ÇXR çox vaxt maraqlarını gizlədir və ya onu mütləq qarşı tərəfin maraqları ilə uyğunlaşdırır. Yayılan informasiyalara görə, Çin Zəngəzur dəhlizinin açılması qarşılığında Ermənistan iqtisadiyyatına 7 milyard dollar investisiya qoymağa söz verib. Bu, çətin iqtisadi durumda olan Ermənistana hava və su kimi lazımdır.

Artıq görünən budur ki, Hindistanla İranın Zəngəzur dəhlizinə mane olmaq imkanları itir və dəhliz tezliklə açılacaq, Ermənistan da ən çox fayda götürəcək tərəflərdən olacaq. Bu üzdən o, indi dəhlizin açılmasına müsbət yanaşır.

Zəngəzur dəhlizinin açılması niyə bu qədər əhəmiyyətlidir? Məlum olduğu kimi, Çin Orta dəhlizlə yüklərin daşınmasının illik həcmini 30 milyon tona çatdırmaqda israrlıdır. Bu həm də marşrutun keçdiyi bütün ölkələrin maraqlarına cavab verir. Çünki yüklərin tez və fasiləsiz daşınması üçün onun şaxələnməsi lazımdır. Dünya logistikasında "dar boğazlar" deyilən bir termin var. Ola bilsin ki, gələcəkdə Gürcüstan üzərindən ildə 30 milyon ton yükün göndərilməsi mümkün olmasın. Bu səbəbdən qlobal səviyyədə Zəngəzur dəhlizinin açılmasına maraq artıb.

Azərbaycanın marağı isə Naxçıvan və Türkiyəyə yüklərin tez çatdırılması, həmçinin türk dünyasının logistik bağlantısının etibarlı olmasıdır. Zəngəzur dəhlizi hesabına ölkəmiz həmçinin Orta dəhliz və Şimal-Cənub marşrutlarının qovşaq ölkəsi kimi dünya siyasətinə təsir etmək üçün əlavə imkanlar əldə edəcək. Digər tərəfdən, dəhliz ölkəmizə siyasi dividendlə yanaşı, yüksək səviyyədə iqtisadi imkanlar da qazandıracaq.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# "Proseslər Rusiyanın təcridinə aparır"



**Son dövrlər Rusiya tərəfindən Azərbaycana qarşı təzyiqlər, müxtəlif formatlı süni kampaniyalar geniş hal alıb. Bu təzyiqlər fonunda xüsusən Rusiyada yaşayan azərbaycanlılara qarşı təqib halları artıb. Yekaterinburqdakı Azərbaycan diasporunun lideri Şahin Şıxlinskinin oğlu Mutvalı Şıxlinskinin saxlanılması, həmçinin diaspor rəhbərinə qarşı cinayət işinin açılması da bunu bir daha təsdiqləyir.**

Xatırladaq ki, bir müddət əvvəl də Rusiya güc strukturları tərəfindən saxlanılan soydaşlarımızdan ikisi göstərilən şiddət nəticəsində həyatını itirmişdir. Digərlərinin isə həbs müddəti daha üç ay müddətinə uzadılmışdır.

Rusiyanın Azərbaycana qarşı müxtəlif məzmunlu hücumlarının müşahidə olunduğunu deyən Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov qəzetimizə açıqlamasında bildirdi ki, soydaşlarımıza qarşı güc tətbiq olunması, onların saxlanılması zamanı şiddət göstərilməsi bütün beynəlxalq normaların pozulmasıdır: "Hətta Yekaterinburqda azərbaycanlılara qarşı o qədər sərt rəftar edildi ki, onlardan ikisi həyatını itirdi. Zorakılıq, təzyiqlər silsilə şəklində özünü göstərməkdədir. Azərbaycanın mülki təyyarəsinə Qroznı şəhərində raket hücumundan sonra Rusiya tərəfindən təzyiq halları genişlənməyə başlayıb və Azərbaycanın media resurslarına qarşı kiberhücumlar təşkil olunub. Milli Məclisin deputatının hava limanında saxlanılaraq deportasiya edilməsinin ardınca Rusiyanın müxtəlif vilayət və şəhərlərində azərbaycanlılara qarşı təqib əməliyyatları həyata keçirilir. Rusiya bununla öz gücünü, qüdrətini, nüfuzunu göstərməyə çalışırsa, yanılır".

Siyasi ekspert qeyd etdi ki, Azərbaycan Rusiya tərəfindən aparılan kampaniyalara qarşı adekvat addımlar atır, regionda əsas söz sahibi olduğunu nümayiş etdirir: "Ən əsası Azərbaycan sübut edir ki, bizimlə şantaj, təhdid dilində danışmaq mümkün deyil. Dövlətin böyüklüyündən, qüdrətindən, nüfuzundan asılı olmayaraq, bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq qurmaq önəmlidir. Bütün münasibətlər sistemi mehriban qonşuluq siyasətinə əsaslanmalıdır. Təəssüflər olsun ki, Rusiyada bəzi dairələr başqa düşüncədədirlər. İmperiya maraqları və ambisiyaları daha geniş şəkildə özünü göstərir".

İ.Hüseynov onu da vurğuladı ki, bütün proseslər hazırkı vəziyyətdə Rusiyanın dünyada təcrid olunmasına gətirib çıxarır və geopolitik qlobal proseslər də bunu deməyə əsas verir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# "Müasir gənclik: milli dəyərlər, yeni düşüncə və gələcəyə baxış"

**İyulun 16-da "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Müasir gənclik: milli dəyərlər, yeni düşüncə və gələcəyə baxış" mövzusunda tədbir keçirilib.**






Əvvəlcə tədbir iştirakçıları İsmayıllı şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov gənclərin hər bir cəmiyyətin aparıcı qüvvəsi olduğunu deyib. Onun sözlərinə görə, Azərbaycan gəncləri ölkəmizin ümumi inkişafına mühüm töhfə verirlər. Z.Muradov qeyd edib ki, bundan sonrakı mərhələdə də onların üzərinə düşən əsas vəzifə müstəqil dövlətimizi və milli dəyərlərimizi qorumaqdan ibarətdir.

Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən bəhs edib. Z.Musayeva qeyd edib ki, Azərbaycanda dövlət gənclər siyasətinin müəllifi Ulu Öndər Heydər Əliyevdir: "Ümummilli Lider hər zaman Azərbaycan gəncliyinə böyük qayğı ilə yanaşıb. 2 fevral tarixinin Azərbaycanda Gənclər Günü elan olunması dahi şəxsiyyətin gənclərə verdiyi dəyərin parlaq ifadəsidir. Bu gün dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərimiz bundan sonra da onlara göstərilən etimadı doğrultmalı, milli dəyərlərimizi qorumaqla daha uğurlu gələcək üçün çalışmalıdırlar".

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb: "Prezident İlham Əliyev tərəfindən gənclərə diqqət və qayğı göstərilməsi, qəbul olunmuş proqramlar dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Bu prosesdə gənclərimizin milli-mənəvi dəyərlərimizə sadiqliyi, bu dəyərlərə ehtiramı xüsusi vurğulanmalıdır".

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva isə rəşadətli Azərbaycan Ordusunun tarixi Qələbəsinin milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü olduğunu deyib.

O qeyd edib ki, Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, xalqımız otuzillik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. "Həmin gənclərin mütləq əksəriyyəti Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hakimiyyəti dövründə formalaşmış gənclərdir. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər. Beləliklə, gənclərimiz bu müqəddəs mübarizədə milli dəyərlərimizə nə qədər sadiq olduqlarını bir daha təsdiqlədilər", - deyə S.Xasayeva vurğulayıb.

Tədbirdə həmçinin İsmayıllı rayonu üzrə təhsil sektorunun müdiri Rəşid Məmmədli və rayonun Dövlət Peşə Təhsil Mərkəzinin direktor müavini Nərmin Osmanlı çıxış edərək ölkədə aparılan məqsədyönlü gənclər siyasətindən və bu istiqamətdə atılan addımlardan, qarşıda dayanan vacib hədəflərdən danışıblar.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Qan Bankı - sağlamlığa xidmət edən strateji tibbi platforma

**Dünyanın hər yerində səhiyyənin əsas vəzifələrindən biri də ehtiyacı olan xəstələrin qan və qan komponentləri ilə təminatıdır. Azərbaycanda da bu məsələ strateji tibbi xidmət kimi hər zaman diqqət mərkəzində saxlanılır. Xüsusən son dövrlərdə həyata keçirilən səhiyyə islahatları çərçivəsində qan xidmətlərinin də təkmilləşdirilməsi istiqamətində müvafiq addımlar atılmışdır.**

Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair dövlət proqramlarının icrası bu sahədə vətəndaş məmnunluğunu təmin etmişdir. Həyata keçirilən tədbirlər nəticəsində müalicə-profilaktika müəssisələrinin, eləcə də talassemiyalı, hemofiliyalı və hemodializ müalicəsi alan xəstələrin qan və onun komponentləri ilə təmin edilməsində mövcud olan problemlər bütövlükdə aradan qaldırılmışdır.

Azərbaycanda qan xidmətinin institusional əsaslarla yenidən təşkili isə Prezident İlham Əliyevin "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında 16 iyul 2024-cü il tarixli fərmanı ilə həyata keçirilmişdir. Həmin sənədə əsasən, uzun illər Milli Hematologiya və Transfuziologiya Mərkəzinin tərkibində fəaliyyət göstərən Mərkəzi Qan Bankı ayrılaraq, Respublika Qan Bankı adı altında Səhiyyə Nazirliyinin tabeliyində publik hüquqi şəxs kimi fəaliyyətə başlamışdır.

Bu mühüm qərar dövlət səviyyəsində qan xidmətinə verilən önəmi və bu sahənin milli səhiyyə sistemində strateji rolunu açıq şəkildə ortaya qoyur. Hazırda Respublika Qan Bankı qan və qan komponentlərinə olan tələbatın ödənilməsi sahəsində fəaliyyət göstərən, qan və qan komponentlərinin tədarükünü, emalını, yoxlanılmasını, saxlanılmasını və bölüşdürülməsini təmin edən koordinasiyaedici və icraedici orqan kimi fəaliyyət göstərir. Qurumun əsas funksiyası - donor qanının qəbul edilməsi, təhlükəsizlik baxımından laborator müayinələrdən keçirilməsi, klinik göstərişlərə uyğun qan komponentlərinə emalı və ehtiyacı olan tibb müəssisələrinin qan komponentləri ilə təmin edilməsidir.

Məqsəd həm də fəaliyyətin bütün mərhələlərində şəffaflıq, xidmət göstəricilərinin yüksəldilməsi və inkişaf etdirilməsi və risk əsaslı idarəetmənin təmin edilməsidir. Qan komponentlərinin istifadəsi yalnız klinik əsaslandırmaya əsasən həyata keçirilir və bu proseslər üzrə nəzarət Səhiyyə Nazirliyinin normativ sənədləri əsasında aparılır.



Ölkə üzrə hazırda 8 regional qan bankı fəaliyyət göstərir və onlar mərkəzi strukturla inteqrasiya olunmuş şəkildə işləyir. Bu qurumlar arasında informasiya axını, ehtiyat bölgüsü və keyfiyyətə nəzarət prinsipləri vahid yanaşma ilə tənzimlənir. Regionlarda tədarük imkanlarının artırılması və fövqəladə hallarda operativ təminat məqsədilə logistika xəritəsi və ehtiyat sistemləri hazırlanır.

Qan Bankında donor qanı müasir beynəlxalq tələblərə uyğun olaraq NAT (Nucleic Acid Testing) üsulu ilə yoxlanılır, bu isə infeksiyaların erkən mərhələdə aşkarlanmasına və qan təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Bundan əlavə, donor məlumatlarının idarə olunması üçün elektron qeydiyyat sistemi və laborator informasiya platforması tətbiq olunmaqdadır.

Hazırda Respublika Qan Bankı ISO 9001:2015 beynəlxalq keyfiyyət idarəetmə sisteminə uyğunluq məqsədilə audit mərhələsindədir və bu istiqamətdə akkreditasiya prosesinə başlanılıb. Məqsəd - fəaliyyətin bütün mərhələlərində şəffaflıq və risk əsaslı idarəetməni təmin etməkdir.

Qan komponentlərinin daşınması, saxlanması və istifadəyə verilməsi üzrə texniki şərtlər beynəlxalq transfuzion təcrübəyə uyğunlaşdırılıb, bu da səhiyyə sistemində keyfiyyətli və təhlükəsiz qan məhsullarının dövriyyəsinə zəmin yaradır.

Qan xidmətinin mərkəzləşdirilməsi təkcə texniki və təşkilati məsələ deyil, eyni zamanda ictimai və mədəni bir transformasiyadır. Bu baxımdan Respublika Qan Bankı təkcə səhiyyə infrastrukturunun texniki dayağı deyil, eyni zamanda donorluq mədəniyyətinin formalaşdırılması, ictimai həmrəylik və vətəndaş məsuliyyətinin təşviqi baxımından strateji bir platformadır. Bu institut həm də yalnız səhiyyənin bir parçası deyil - o, həyatı təmin edən bir sistemdir. Dövlətin qan xidməti sahəsinə verdiyi önəm, bilavasitə vətəndaşın həyatına toxunan, cəmiyyətin sağlam gələcəyinə hesablanmış məsuliyyətli bir yanaşmadır.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Azərbaycan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans və TÜRK-AY-ın birinci konqresi keçirilib



**İyulun 16-da Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş "Konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar" mövzusunda beynəlxalq konfrans və Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi keçirilib.**

Konstitusiya Məhkəməsindən AZƏRTAC-a bildirilib ki, konfransda iştirak etmək üçün ölkəmizə gələn xarici qonaqlar əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Sonra Bakıda Zəfər parkı ziyarət edilib, abidə önünə gül dəstələri düzülüb.

Konfransın açılışında Azərbaycanın Dövlət Himni səsləndirilib və tədbir üçün hazırlanmış videoçarx nümayiş olunub.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Şimali Kipr Türk Cümhuriyyəti, Belarus, Gürcüstan, Moldova, Serbiya, İraqın konstitusiya ədalət mühakiməsi orqanlarının nümayəndə heyətləri beynəlxalq tədbirlərdə iştirak etmək üçün Konstitusiya Məhkəməsinin dəvəti ilə Bakı şəhərinə dəvət olunublar.

Həmçinin konfransda Milli Məclisin, Ali Məhkəmənin, Baş Prokurorluğun, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vəkillər Kollegiyasının rəhbər şəxsləri və nümayəndələri, insan hüquqları üzrə müvəkkil (ombudsman), habelə bir sıra məhkəmələrin sədr və hakimləri, tanınmış alimlər, hüquq ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev konfransı açaraq Konstitusiyamızın 30 illik yubileyinə həsr olunan tədbirin əhəmiyyətini yüksək qiymətləndirib, burada səmərəli müzakirələrin aparılacağına əminliyini bildirib.

F.Abdullayev xüsusi vurğulayıb ki, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü tamam olur. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm hadisə olmaqla, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında əvəzolunmaz xidmətlərindən biri uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunub, bununla da ölkəmizdə hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyulub. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu dövlətçilik tarixində mühüm hadisə olmaqla, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslı zəmin yaradıb.

Diqqətə çatdırılıb ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən və dərin düşünülmüş siyasəti, sərkərdəlik məharəti, əsgər və zabitlərimizin qəhrəmanlığı 2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror əməliyyatında tarixi zəfərləri təmin edib. Qazanılan şanlı Qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Konstitusiyamızın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün torpaqlarımızda bərqərar olub.

Sonra Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, baş prokuror Kamran Əliyev, ədliyyə naziri Fərid Əhmədov, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov açılış nitqləri ilə çıxış ediblər.

Konfransın praktiki hissəsində Türkiyə Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya, Belarus Konstitusiya Məhkəməsinin sədri Pyotr Miklaşeviç, Serbiya Konstitusiya Məhkəməsinin sədri Snejana Markoviç, Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədov, Özbəkistan Konstitusiya Məhkəməsinin sədri Mirzə-Uluqbek Abdusalomov, Moldova Konstitusiya Məhkəməsinin sədri Domnika Manole, İraq Federal Ali Məhkəməsinin sədri Munter İbrahim Hüseyn, Tacikistan Konstitusiya Məhkəməsinin sədri Abdulhafiz Aşurzoda, Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin sədri Bertan Özerdağ, Qırğız Respublikası Konstitusiya Məhkəməsinin hakimi Çinarə Aydarbekova, Qazaxıstan Konstitusiya Məhkəməsinin hakimi Erkin Onqarbayev çıxış edərək öz ölkələrində konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsi sahəsində mövcud təcrübələrini bölüşüblər.

Məruzələrdən sonra mövzular ətrafında müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

Tədbirə yekun vuran Fərhad Abdullayev konfransın gedişatında müxtəlif aktual mövzulara toxunulduğunu və səmərəli fikir mübadiləsi aparıldığını bildirib. Qeyd edilib ki, müxtəlif hüquq sistemlərinə malik ölkələrin təcrübələrinin bölüşüldüyü konfransda maraqlı müzakirələr aparılıb, Konstitusiya məhkəmələrinin qərarlarında formalaşdırılan hüquqi mövqelər, konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar ilə bağlı maraqlı fikirlər ifadə edilib.

Konfransdan sonra Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi işə başlayıb. Konstitusiya Məhkəməsinin sədrliyi ilə keçirilən konqresdə təşkilatın tamhüquqlu üzvləri olan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Konstitusiya məhkəmələrinin nümayəndələri iştirak ediblər. Eyni zamanda Şimali Kiprin Ali Məhkəməsinin sədrinin və İraq Federal Ali Məhkəməsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətləri konqresə fəxri qonaq qismində qatılıblar.

Konqresin əvvəlində Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək, bu əlamətdar tədbirin ölkəmizdə keçirilməsinin önəmini vurğulayıb.

O qeyd edib ki, türk dövlətləri arasında hüquqi əməkdaşlığın genişləndirilməsi, ortaq hüquqi dəyərlərin təşviqi baxımından TÜRK-AY platforması mühüm hüquqi əməkdaşlıq meydanına çevrilib.

Tədbirdə Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının (Təşkilatı) 6-cı konqresi ilə əlaqədar TÜRK-AY-a üzv məhkəmələrin nümayəndələri tərəfindən milli məruzələr üzrə icmallar təqdim edilib.

İcmalların təqdimatından sonra TÜRK-AY-ın beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində fəaliyyəti, bu sahədə əldə olunmuş nailiyyətlər və perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Şimali Kiprin Ali Məhkəməsinin müraciəti müzakirə olunub və bu qurumun TÜRK-AY-a müşahidəçi statusunda qəbul olunması haqqında qərar qəbul edilib.

Konqres çərçivəsində türk dövlətləri arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən "Bakı Bəyannaməsi" imzalanıb. Bəyannamə 2024-cü il 6 iyul tarixli "Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün Qarabağ Bəyannaməsi"ndə əksini tapmış türk dövlətlərinin səylərinin, birliyinin vacibliyini bir daha təsdiqləyərək, türk dövlətlərinin konstitusiya ədalət mühakiməsi orqanları arasında hüquqi əməkdaşlığın vacibliyini qeyd edir.

Konqres iştirakçıları TÜRK-AY Konfransının birinci konqresinin təşkilinə görə Azərbaycana minnətdarlıqlarını bildirib, xalqımızı "Konstitusiya və Suverenlik İli" münasibətilə təbrik ediblər.

Tədbir zamanı həmçinin Azərbaycan Konstitusiya Məhkəməsi ilə Türkiyə Konstitusiya Məhkəməsi, eləcə də Azərbaycan Konstitusiya Məhkəməsi ilə İraq Federal Ali Məhkəməsi arasında Anlaşma memorandumları imzalanıb.

Sonda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev TÜRK-AY-ın birinci konqresinin işini yüksək qiymətləndirib və tədbirin uğurla başa çatmasından məmnunluğunu ifadə edib.

O, TÜRK-AY çərçivəsində konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın davamlı olacağına və gələcəkdə daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

İyulun 17-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında tədbirin xarici qonaqları üçün konsert proqramının təşkili nəzərdə tutulur.

Həmçinin qonaqların Azərbaycanın zəngin tarixi və mədəni irsi ilə tanışlığı üçün proqramlar təşkil edilib.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycanın birnömrəli brendi

## Reytinqi ildən-ilə yüksələn SOCAR beynəlxalq enerji şirkətinə çevrilir

**"Moody's" Beynəlxalq Reytinq Agentliyi SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) investisiya oluna bilən dərəcəyə keçidini nəzərdə tutan uzunmüddətli emitent reytinqini Baa3 (sabit) dərəcəsinə yüksəldib.**




Öncə qeyd edək ki, "Moody's" 2010-cu ildən SOCAR-la kredit reytinqlərinin verilməsi üzrə əməkdaşlığa başlayıb və hazırkı Baa3 reytinqi indiyədək əldə edilmiş ən yüksək dərəcədir. SOCAR-dan verilən məlumata görə, şirkətin sağlam maliyyə göstəriciləri, şəffaflığın və hesabatlılığın gücləndirilməsi və təkmilləşdirilmiş korporativ idarəetmə mexanizmlərinin formalaşdırılması reytinqin yüksəldilməsinə təsir edən əsas amillərdir.

Neft və qaz bazarlarında qiymət dalğalanması və əməliyyat volatilliyi kimi çətinliklərə baxmayaraq, SOCAR ardıcıl dörd il müsbət sərbəst pul axını, etibarlı kredit göstəriciləri və sağlam likvidlik mövqeyi nümayiş etdirib. Reytinq həmçinin SOCAR-ın davamlı olaraq beynəlxalq əməkdaşlığı genişləndirməsini də nəzərə alır. "Moody's"in sabit proqnozu SOCAR-ın kredit keyfiyyətini və səmərəli maliyyə idarəçiliyini qoruyub saxlamaq bacarığına olan inamı əks etdirir.

Keçən il isə "Fitch" Beynəlxalq Reytinq Agentliyi SOCAR-a investisiya edilə bilən dərəcədə olan BBB- (sabit) reytinqi vermişdir. Bundan əlavə, ötən il SOCAR özünün COP28 zamanı elan olunan dekarbonizasiya hədəflərinə sadiqliyini nümayiş etdirərək MSCI tərəfindən BBB ESG (Environment, Social and Governance - Ətraf mühit, Sosial və İdarəetmə) reytinqi almışdır.

Xatırladaq ki, SOCAR artıq dünyada tanınan bir şirkətdir. Şirkət ölkəmizin ərazisində qurudakı və dənizdəki neft və qaz yataqlarının axtarışını, kəşfiyyatını və işlənməsini, neftin, qazın və qaz kondensatının hasilatını, emalını və nəqlini həyata keçirir. Şirkətin fəaliyyətinə həmçinin neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışı daxildir. SOCAR habelə ölkə ərazisində sənayenin və əhalinin təbii qazla təchizatını təmin edir.

SOCAR neft-qaz şirkətindən beynəlxalq enerji şirkətinə transformasiya istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirir. O, keyfiyyətli idarəetmə, şəffaflıq və müasir yanaşmalar əsasında enerji sektorundakı mövqeyini ardıcıl olaraq möhkəmləndirir. Bərpaolunan enerji mənbələrinin inkişafı kimi sahələrdə uğurla fəaliyyət göstərən şirkət rəqəmsallaşma, innovasiya, "yaşıl enerji"yə keçid vasitəsilə davamlı inkişafı və dayanıqlı artımı təşviq edir.

SOCAR həmçinin iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edərək ekoloji cəhətdən təmiz, aşağıkarbonlu və qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verir. Ekoloji təmiz texnologiyalardan istifadə edərək ölkənin elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq da şirkətin əsas missiyalarındandır.

SOCAR-ın xarici fəaliyyəti əsasən Gürcüstan, Türkiyə, Ukrayna, İsveçrə və Rumıniya kimi ölkələrdə genişlənir. Şirkət bu ölkələrdə neft və qaz hasilatı, emalı, nəqli, həmçinin yanacaqdoldurma məntəqələri şəbəkəsinin qurulması kimi sahələrdə fəaliyyət göstərir. Məsələn, Gürcüstanda SOCAR neftin topdan və pərakəndə satışı, neft məhsullarının idxalı, neft terminalı və anbarlarının tikintisi ilə məşğuldur. Şirkət bu ölkədə həmçinin bir neçə yanacaqdoldurma məntəqəsi açıb və Kulevi neft terminalını idarə edir.

Türkiyədə isə SOCAR ən böyük xarici investorlardan biridir və "Petkim" neft-kimya kompleksi, STAR neft emalı zavodu kimi iri layihələrdə iştirak edir.

Şirkət Ukrayna, İsveçrə və Rumıniya da daxil olmaqla bir sıra digər ölkələrdə də fəaliyyət göstərir. SOCAR bu ölkələrdə də neft və qaz sektorunda investisiyalar yatırır və biznes əməliyyatları həyata keçirir.

SOCAR-ın xarici fəaliyyəti ölkə iqtisadiyyatına müsbət təsir göstərir, xarici investisiyaların cəlb edilməsinə, yeni iş yerlərinin yaradılmasına və ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsinə kömək edir.

*Flora SADIQLI, "Azərbaycan"*

# Hanoyda Vyetnam-Azərbaycan biznes-forumu keçirilib

**Hanoyda Vyetnam-Azərbaycan iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclası ərəfəsində Azərbaycan-Vyetnam birinci biznes şurası və biznes-forumu keçirilib.**



AZƏRTAC xəbər verir ki, biznes şurası və forumun açılışında Vyetnam Sosialist Respublikasının sənaye və ticarət nazirinin müavini Nquyen Hoanq Lonq və Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxış ediblər.

Vyetnamın sənaye və ticarət nazirinin müavini Nquyen Hoanq Lonq deyib ki, Azərbaycan Qafqaz regionunda Vyetnamın ilk strateji tərəfdaşıdır. Bu da ölkələrimiz arasında dərin siyasi etimadı və əməkdaşlıq üçün geniş potensialı əks etdirir. Vyetnamın Sənaye və Ticarət Nazirliyi və müvafiq qurumlar Azərbaycanla sıx əməkdaşlıq etməyə, şirkətlərə şərait yaratmağa hazırdırlar.

Energetika naziri Pərviz Şahbazov isə bildirib ki, yarım əsrdən artıq tarixi olan Azərbaycan-Vyetnam dostluğu, eləcə də bu ilin may ayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfəri zamanı qəbul olunmuş Birgə Bəyanatla strateji səviyyəyə yüksəlmiş münasibətlərimiz güclü iqtisadi tərəfdaşlıq üçün möhkəm baza təşkil edir. Bu əsas üzərində qarşılıqlı faydalı tərəfdaşlığın yeni mərhələyə yüksəldilməsi, ticarət dövriyyəsinin, investisiya axınlarının artırılması və iqtisadi əlaqələrin dərinləşdirilməsi üçün biznes şurası və forumu əhəmiyyətli platformalardır.

Azərbaycan iqtisadiyyatının şaxələndirmə mərhələsinə qədəm qoyduğu, xarici investorlar üçün rəqabətədavamlı və sabit mühit formalaşdırıldığı vurğulanaraq qeyd edilib ki, son 20 ildə ölkə iqtisadiyyatına qoyulmuş təqribən 350 milyard dollar məbləğində sərmayənin yarıdan çoxunun xarici investisiya olması bu etimadın bariz göstəricisidir. Bildirilib ki, sənaye parkları, azad iqtisadi zonalar, inkişaf etmiş nəqliyyat və logistika infrastrukturu, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Dəhliz və Şərq-Qərb, Şimal-Cənub nəqliyyat marşrutlarının Azərbaycan üzərindən keçməsi ölkəmizi geniş coğrafiyada strateji iqtisadi qovşağa və mühüm regional mərkəzə çevirib. Eyni zamanda, Azərbaycanın bir çox ölkələrin enerji təhlükəsizliyindəki rolu hazırda zəngin bərpaolunan enerji potensialı və yaşıl enerji dəhlizləri vasitəsilə daha da genişlənir.

"Vyetnam şirkətləri üçün Azərbaycan yalnız 10 milyonluq daxili bazar deyil, həmçinin Qafqaz, Mərkəzi Asiya və Avropa regionlarına çıxış üçün strateji qapıdır. Eyni zamanda Azərbaycan şirkətləri üçün Vyetnam sürətlə inkişaf edən, innovasiyalara açıq və strateji əhəmiyyət kəsb edən Asiya bazarıdır. Sahibkarları Azərbaycan və Vyetnamda investisiya mühiti, iqtisadi zonalar, sənaye parkları, yüksək texnologiyalar, kənd təsərrüfatı, karbohidrogenlər və bərpaolunan enerji sahələrində informasiya mübadiləsinə qoşulmağa; qarşılıqlı biznes missiyaları təşkil etməyə; mövcud imkanlardan faydalanmağa; birgə müəssisələr yaratmağa və konkret layihələrə sərmayə yatırmağa dəvət edirik", - deyə nazir Pərviz Şahbazov vurğulayıb.

Tədbir çərçivəsində VINEN və AZPROMO, "Phong Phu Corporation" və "GP Cotton Holdings", "Tuong Vu JSC. CO" və "Fresh - Meat", "ANC Group" MMC və "7 Center", həmçinin Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə "ROX Group" SC arasında əməkdaşlıq sənədləri imzalanıb. BOEMDA ilə "ROX Group" SC arasında imzalanmış bərpaolunan enerji sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu batareya saxlama sistemləri, şəbəkədən kənar və şəbəkəyə qoşulan günəş enerjisi sistemləri, quruda və dənizdə külək enerjisi, hidrogen və ammonyak istehsalı sahəsində əməkdaşlığı nəzərdə tutur.

Biznes şurası və forum İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Vyetnam Milli Sahibkarlıq Assosiasiyası (VINEN) və hər iki ölkənin şirkətlərinin iştirakı ilə panel müzakirələri və B2B görüşləri ilə davam edib.

# Daha 665 nəfər peşə hazırlığına cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən iyul ayının birinci yarısında daha 665 şəxs əmək bazarının tələblərinə uyğun peşələr üzrə kurslara cəlb olunub.**

Onlardan 328 nəfəri üçün Agentliyin Bakı, Gəncə, Göyçay və Qarabağ Peşə Hazırlığı Mərkəzlərində və Naxçıvan Muxtar Respublikasında, 337 nəfəri üçün isə özəl tədris müəssisələrində peşə kursları təşkil olunub.

Təşkil olunan kurslar, əsasən, aşpaz, ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar, bərbər-vizajist-manikürçü, qənnadçı, şirniyyatçı, ofisiant, dərzi, xalça məmulatları üzrə bərpaçı-rəssam peşələri üzrədir.



Qeyd edək ki, kurslarda müdavimlərə müvafiq peşələr üzrə nəzəri və praktiki biliklər tədris olunur. Peşə kurslarını uğurla başa vuran şəxslərin işlə təminatına da dəstək göstərilir.

# Özəlləşdirilən "Bakı ayaqqabı fabriki" ASC yenidən qurulub

**İnvestisiya müsabiqəsi vasitəsilə özəlləşdirilən "Bakı ayaqqabı fabriki" ASC-yə 5,7 milyon manat sərmayə yatırılıb.**

Azərbaycan Respublikası Prezidentinin "Dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanına və bu istiqamətdə tapşırıqlarına uyğun olaraq, özəlləşdirilən müəssisələr yenidən qurulur, müasir texnologiya və avadanlıqlarla təchiz olunur, yeni iş yerləri yaradılır. Belə müəssisələrdən biri də 2022-ci ildə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən keçirilən investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilən "Bakı ayaqqabı fabriki" ASC-dir.

ASC-nin özəlləşdirilməsi üzrə elan edilən investisiya müsabiqəsinin qalibi "Pepi-Əli Kəndli Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyəti üzərinə götürdüyü öhdəlikləri icra edib, dövlət büdcəsinə 3,5 milyon manat məbləğində vəsait köçürüb, müəssisəyə 5,7 milyon manat məbləğində investisiya yatırıb.

İnvestisiya proqramına əsasən, müəssisədəki istehsal avadanlıqları əsaslı təmir olunub və yeniləri quraşdırılıb, həmçinin ayaqqabı istehsalında istifadə olunan xammal alınıb. Türkiyənin ayaqqabı istehsalı sahəsində ixtisaslaşmış "ESSE" şirkəti ilə əməkdaşlıq əlaqələri qurulub, xarici mütəxəssislər cəlb olunub. Müəssisənin yenidən qurulması, istehsal olunan məhsulun həcminin və keyfiyyətinin yüksəldilməsi ixrac imkanlarının genişlənməsinə imkan verəcək. Müəssisədə 100-dən artıq iş yeri yaradılıb.

# Ələt Azad İqtisadi Zonasının səsi Tokiodan gəlir

**Bu gün dünya sənayesi sürətlə dəyişir, texnologiya və innovasiyalar istehsal sahəsini köklü şəkildə yenidən formalaşdırır. Rəqabətədavamlı olmaq üçün ölkələr təkcə məhsul istehsal etmir, eyni zamanda "ağıllı texnologiya"lar tətbiq edir və qlobal sənaye şəbəkələrində fəal rol oynamağa çalışırlar.**

Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri olan Ələt Azad İqtisadi Zonası (ƏAİZ) məhz bu məqsədlə yaradılıb - regionun rəqəmsal, ixracyönümlü və "yaşıl sənaye" mərkəzinə çevrilmək üçün. Həmin hədəflərə doğru inamla irəliləyən ƏAİZ artıq öz imkanlarını dünya arenasında nümayiş etdirmək mərhələsinə qədəm qoyur. Bu baxımdan ƏAİZ-in "Manufacturing World Tokyo 2025" kimi nüfuzlu bir sənaye sərgisində iştirakı Azərbaycanın qlobal iqtisadi arenada iddialı mövqeyinin bariz göstəricisidir.

Sərgi çərçivəsində azad iqtisadi zonanın nümayəndələri Yaponiya, Koreya Respublikası, Çin, Hindistan və digər ölkələrdən olan şirkətlərlə görüşlər keçiriblər. ƏAİZ-də investisiya imkanları, o cümlədən unikal qanunvericilik bazası, maliyyə və qeyri-maliyyə güzəştlər paketi, istifadəyə hazır sənaye torpaq sahələri barədə ətraflı məlumat təqdim edilib. Görüşlər faydalı keçib, emal sənayesi də daxil olmaqla bir sıra strateji sahələr üzrə gələcək əməkdaşlıq üçün real imkanlar formalaşıb.

Məlumat üçün bildirək ki, "Manufacturing World Tokyo" sərgisi Yaponiyada sənaye və istehsal sahəsinə həsr olunmuş ən genişmiqyaslı beynəlxalq tədbir olaraq bu sahədəki son yenilikləri bir araya gətirir. Sərgi 37 ildən çoxdur keçirilir və hər il iyul ayında "Tokyo Big Sight", yaxud "Makuhari Messe" məkanlarında təşkil olunur. "Manufacturing World Tokyo 2025" "Makuhari Messe" sərgi mərkəzində baş tutub. İstehsal, dizayn və tədqiqat inkişaf mühəndislərinin, satınalma və təchizat menecerlərinin, IT və DX mütəxəssislərinin işitirak etdiyi Tokio sərgisində əsasən mexaniki komponentlər və texnologiyalar, dizayn, tibbi cihazların inkişafı, zavod avadanlıqları və ölçmə, sınaq




və sensor texnologiyaları, süni zəka, elektron istehsal xidmətləri, sənaye kibertəhlükəsizliyi nümayiş olunur.

"Manufacturing World Tokyo" sərgisi texnologiyaların nümayişi ilə yanaşı, düşüncə və biliklərin paylaşım platforması kimi də diqqət çəkir. Burada süni intellektdən tutmuş "ağıllı fabrik"lər, robotlaşdırma, kibertəhlükəsizlik, 3D çap və ağıllı texniki xidmət kimi mövzular müzakirə olunur. Üç gün ərzində keçirilən 100-dən çox seminar və təqdimat, iştirakçılara ən son trendləri birbaşa ekspertlərin dilindən eşitmək imkanı verir. "Manufacturing World Tokyo 2025" sərgisində nəzərdə tutulan sessiyaların təxminən 30-u beynəlxalq auditoriyanı nəzərə alaraq sinxron tərcümə ilə keçirilirdi.

Belə bir yüksək texnoloji platformada iştirak etmək Azərbaycanın sənayeləşmə yolunda atdığı strateji addımların təqdim olunması baxımından mühüm fürsət idi. Sərginin gündəmində olan bütün müasir tendensiyalar fonunda ƏAİZ-in təqdimatı iştirakçılar arasında maraq doğurdu. Çünki Ələt Azad İqtisadi Zonası Bakı Dəniz Limanı magistral yollar və dəmir yolu xəttinin kəsişməsində yerləşməklə artıq hazır və inkişaf etməkdə olan multimodal daşımalar üçün də əlverişli şəraitə malikdir. Zonanın əsas üstünlüklərindən biri də onun güclü nəqliyyat və logistika bağlantılarıdır. Ələtin yaxınlığında tikintisi davam edən yeni yük hava limanı bu imkanları daha da genişləndirəcək və bölgəni Orta dəhliz üzərində yerləşən mühüm bir logistika qovşağına çevirəcək. Bu da investorlar və istehsalçılar üçün məhsulların daha sürətli və səmərəli şəkildə regional və qlobal bazarlara çıxarılmasını təmin edəcək.

Ona görə də qurum beynəlxalq tərəfdaşlarla əlaqələri genişləndirməyə davam edir və ixracyönümlü istehsalatla məşğul olan şirkətləri yeni və perspektivli bazarlara çıxış üçün təqdim olunan imkanlarla tanış olmağa dəvət edir. Bu mənada ƏAİZ-in Yaponiyanın iri sənaye və texnologiya sərgisində iştirakı yalnız regional deyil, qlobal iqtisadi şəbəkəyə inteqrasiya baxımından da strateji addım sayılır. Yaponiya və Şərqi Asiyanın sənaye nəhəngləri üçün ƏAİZ-də mövcud olan vergi güzəştləri, gömrük azadlıqları, yüksək logistika infrastrukturuna çıxış və investorlara yönəlik şəffaf hüquqi çərçivə cəlbedici gəlir. Belə platformalar xarici investorların marağını artırmaqla yanaşı, Azərbaycanın sabit və rəqabətqabiliyyətli iqtisadi mühitə malik ölkə kimi imicini gücləndirir. "Manufacturing World Tokyo 2025"də nümayiş olunan müasir texnologiyaların öyrənilməsi və ƏAİZ vasitəsilə Azərbaycana gətirilməsi, ölkənin sənaye potensialının kəmiyyət və keyfiyyət baxımından yüksəldilməsinə töhfə verə bilər.

Ələt Azad İqtisadi Zonasının "Manufacturing World Tokyo" kimi yüksək profilli sənaye sərgisində iştirakı, onun qlobal iqtisadi xəritədə öz yerini daha möhkəm bərqərar etməsi üçün mühüm addımdır. Bu iştirak sayəsində Azərbaycan sənaye texnologiyalarının idxalı, investisiyaların cəlbi, rəqəmsal və "yaşıl istehsal" imkanlarının inkişafı, həmçinin regional sənaye mərkəzi olma potensialını daha geniş auditoriyaya nümayiş etdirə bilər. Belə tədbirlər Azərbaycanın XXI əsrin sənaye transformasiyasında iştirak etmək əzmini və strateji baxışını da ortaya qoyur.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

اكينجى

# Azərbaycan Milli Mətbuatı - 150

**Söz var deyəndə unudulur, söz də var tarixə yazılır. Söz var xəbərdir, söz də var ideologiya. Söz var qələmdən çıxmasa yaxşıdır, söz də var millətə taleyini, yolunu, gələcəyini göstərir.**




## Doğru sözün dəyişməz ünvanı

"Azərbaycan" qəzeti Azərbaycan gerçəklərinin daşıyıcısıdır. O, xalqın səsi, dövlətin sözü, bu günlə sabah arasında körpüdür. Harada dövlətin səsi var iradəsi görünür, harada xalqın problemi, rahatsızlığı var, orada bu qəzetin mövqeyi, "Azərbaycan"ın sözü yer alır. Harada xalqın birliyi, milli ideologiyanın möhtəşəm siması varsa, onu qəzetin hər səhifəsində görmək mümkündür. Bu qəzet sadəcə kütləvi informasiya vasitəsi deyil, o, vətəndaşlıq və vətənpərvərliyin, dövlətin və dövlətçiliyin təbliğatçısıdır.

150 yaşlı mətbuatımızın "Azərbaycan"ı 107 illik bir zaman kəsiyində (70 illik fasilə ilə) milli mətbuatımızın inkişafında mühüm rol oynamış, xalqın maarifləndirilməsi, milli ideyaların təbliği və ictimai fikrin formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir. Qəzet 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) mətbu orqanı kimi nəşr olunmağa başlamış, 1991-ci ildən isə müstəqil dövlətimizin qanunverici orqanının rəsmi tribunasına çevrilmişdir. Bu tarixi ardıcıllıq "Azərbaycan" qəzetinə ictimai etimad dəyəri qazandırır, onu tarixi legitimlik baxımından unikal edir. Zəngin tarixi ilə bu qəzet həm siyasi, həm iqtisadi, həm də ədəbi-mədəni həyatın güzgüsünə çevrilmiş, bütün zamanlarda cəmiyyətin nəbzini tutmağı bacarmışdır. Tarixin müxtəlif dönəmlərində "Azərbaycan" öz missiyasını unutmamış, dövrün çağırışlarına cavab verməyə çalışmışdır. Qəzetin səhifələrində təkcə xəbərlər və təhlillər deyil, xalqın düşüncə tərzi, arzuları və dəyərləri də öz əksini tapmışdır. O, xalqın tribunasına çevrilmiş, onun arzusuna, mövqeyinə çevik reaksiya verən bir mətbuat orqanı kimi tanınmışdır.

İndi isə "Azərbaycan" qəzeti informasiya cəmiyyətinin tələblərinə uyğun yenilənərək milli kimliyimizi yaşadan əsas publisistik platformalardan biri kimi fəaliyyətini uğurla davam etdirməkdədir. Qəzetin zəngin irsi gənc jurnalist nəsli üçün həm ilham, həm də məsuliyyət nümunəsi olaraq qalır. Çünki zaman sürətlə axıb gedir, cəmiyyət dəyişir, saysız-hesabsız mənbədən informasiya gəlir. Belə bir dövrdə hadisələrə yön verən, onları ayırd edib dəyərləndirən mətbuat orqanlarına ehtiyac daha da artır. "Azərbaycan" məhz bu ehtiyacı həm rəsmi, həm analitik, həm də ideoloji baxımdan qarşılamağı bacarır. Bəs bu ehtiyac fonunda bu gün əsasən nədən yazır?

Bu sual əslində sadə görünsə də, arxasında böyük bir informasiya və ideologiya yükü dayanır. "Azərbaycan" hazırda cəmiyyətin gündəmini müəyyən edən hadisələri yalnız xəbər və təhsil dili ilə deyil, dövlətçilik və milli ideologiya prizmasından təqdim edir. O, sadəcə kağız üzərində mətn deyil, bir millətin düşünən beyni, danışan ruhu, görünən vicdanıdır. "Azərbaycan" təkcə dövrü əks etdirmir, dövrün özünü yazır. Bu gün mətbuat məkanında müxtəlif ideoloji yönlərə və janr üslublarına malik qəzetlər fəaliyyət göstərir. Lakin bu rəngarənglik fonunda "Azərbaycan" rəsmi, milli və ictimai baxımdan xüsusi statusa malik olan bir nəşr kimi seçilir. Rəsmi dövlət qəzeti və Milli Məclisin orqanı kimi yüksək və məsuliyyətli statuslar "Azərbaycan"a dövlətin qanunverici, hüquqi və siyasi mövqeyini oxucuya ideoloji əsaslarla təqdim etmək imkanı verir. Dövlətin qərarları, qanunları, eləcə də dövlət qurumlarının rəsmi açıqlamaları "Azərbaycan" qəzetinin əsas vəzifəsi və öhdəliyidir. Bu baxımdan "Azərbaycan" rəsmi xəbər və məlumat ilə ideoloji şərh arasında bir körpü yaradır.

Qəzet Ulu Öndər Heydər Əliyev siyasi irsinin təbliği, Prezident İlham Əliyevin strateji xəttinin izahı, dövlət siyasətinin ruhu, Heydər Əliyev Fondunun timsalında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın humanizm ideyaları, postmüharibə dövrünün vəzifələri, azərbaycançılıq, milli kimlik, dövlət suverenliyi, dövlətə sədaqət, dövlətçiliyə xidmət, vətənpərvərlik kimi mövzularla hər gün oxucunun "qapısını döyür". Bu mövzular "xəbər üçün xəbər" deyil, dövlətçiliyi və siyasi sabitliyi gündəmdə saxlayan davamlı düşüncə platforması kimi qəzetin strateji mətbu orqan olduğunun göstəricisidir. Əsas diqqətçəkən məqamlarından biri, heç şübhəsiz, Prezident İlham Əliyevin çıxış və təşəbbüslərinin geniş təhlilidir. "Azərbaycan" dövlət başçısının strategiyasını oxuculara dərindən çatdırır, ölkənin sosial-iqtisadi inkişafı, xarici siyasəti və milli təhlükəsizlik sahəsində atılan addımları ətraflı şərh edir.

Dövlət başçısının həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə apardığı siyasət qəzetin prioritet mövzusudur. Belə mövzularda təhlillər cəmiyyətin doğru məlumatlanmasına və dövlətin inkişaf strategiyasına dəstək verməyə xidmət edir. Xeyli sayda qəzet və digər KİV operativ xəbərçiliyə üstünlük verdiyi halda, "Azərbaycan" siyasi, sosial və ideoloji hadisələrin dərin təhlili və doğruluğu ilə seçilir. COP29, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Türk Dövlətləri Təşkilatı (TDT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və digər beynəlxalq qurumların keçirdiyi tədbirlərin ölkə maraqları prizmasından izahı qəzetin səhifələrində davamlı yer alır. Ardıcıl olaraq oxuculara postmüharibə dövrünün təhlili, gənclərin ideoloji tərbiyəsi, ailə və milli dəyərlər kimi mövzulara dair publisistik və analitik yazılar təqdim edilir. Bu mövzular həm də qəzetin maarifləndirici missiyasından irəli gəlir.

"Azərbaycan" Qarabağda keçirilən beynəlxalq tədbirlərdən geniş bəhs edir və bununla regionun yenidən dirçəldilməsi və dünya ictimaiyyətinin diqqətinin Azərbaycan ərazilərinə yönəldilməsi baxımından əhəmiyyətini önə çəkir. Bu mətbu nəşr həmin görüşlərin iqtisadi, mədəni və diplomatik aspektlərini işıqlandıraraq Qarabağın və Şərqi Zəngəzurun sülh, əməkdaşlıq və inkişaf məkanı kimi təqdim olunmasına öz töhfəsini verir. Bu tədbirlər vasitəsilə bölgənin yenidən qurulması, multikultural mühitin qorunması və qarşılıqlı anlaşmanın gücləndirilməsi kimi mühüm məqsədlər ön plana çıxarılır.

Qəzetin ideoloji əsaslarından biri də Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasıdır. Bu ideologiya milli-mənəvi dəyərlərin, dilimizin, tariximizin və mədəniyyətimizin qorunub saxlanılması və inkişaf etdirilməsinə əsaslanır. Həmin ideologiyadan çıxış edərək ana dilinə hörmət, milli-mənəvi irsimizin təbliği diqqət mərkəzində saxlanılır. Bu mənada "Azərbaycan" qəzeti azərbaycançılıq ideologiyasının təkcə daxildə deyil, xaricdə də təbliği üçün mühüm platformadır. Bu, onu milli şüurun formalaşmasına xidmət edən strateji nəşr səviyyəsinə qaldırır.

44 günlük Vətən müharibəsindən sonra formalaşan yeni dövrdə "Azərbaycan" qəzeti Zəfər salnaməsini yazan mətbuat orqanı kimi də fərqlənir. Müharibə xatirələrinə, şəhid ailələrinə, qazilərə həsr olunan məqalə, reportaj, oçerklər təkcə məlumat deyil, həm də Zəfərin söz aynası və milli yaddaş kimi diqqət çəkir.

"Azərbaycan"ın səhifələrində Böyük qayıdışa dair yazılar davamlı yer alır. Bu yazılarda işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri, sakinlərin mərhələli şəkildə doğma yurdlarına qayıdışı və dövlətin regionda həyata keçirdiyi sosial proqramlar geniş işıqlandırılır. Qəzet demək olar hər sayında doğma yurda dönən insanların talelərini, kənd və şəhərlərin dirçəlişini, bölgənin gələcək inkişaf perspektivini özündə əks etdirən geniş materiallarla oxucuların görüşünə gəlir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi, böyük sənaye obyektlərinin fəaliyyətə başlaması bölgənin iqtisadi dirçəlişinə və dayanıqlı inkişafına güclü təkan verir və bütün bu faktlar qəzet səhifələrində geniş işıqlandırılır, həmin prosesin bölgənin gələcək iqtisadi inkişafına, iş yerlərinin yaranmasına və əhalinin rifahının yüksəlməsinə mühüm təsir göstərəcəyi vurğulanır.

"Azərbaycan" bu gün daha nədən yazır? Daha doğrusu, daha nəyə işıq tutur, nəyi yaşadır? Bu sual bizi sadəcə qəzetin gündəminə yox, cəmiyyətin mənəvi xəritəsinə aparır. Cəmiyyətin mənəvi xəritəsi bir xalqın keçmişindən gələcəyinə uzanan, onun düşüncə tərzini, inanc sistemini, milli kimliyini, dəyərlərini və ruhunu əks etdirən görünməz bir məkandır. Bu, sadəcə ideoloji və ya əxlaqi ölçülər deyil, həm də kollektiv yaddaşın, tarix boyu formalaşmış mənəvi kodların toplusudur. Hər xalqın özünəməxsus mənəvi coğrafiyası var. Bu coğrafiyada şəhidlik zirvəsi, ana dili qayəsi, mədəniyyət bulağı, ədəbiyyat vadisi, tarix çinarı və milli dəyərlər kimi müqəddəs məkanlar yer alır. "Azərbaycan" qəzeti hər kəsi məhz bu mənəvi məkanda səyahətə çıxarır. O, oxucunu gündəlik hadisələr içində itirmir, əksinə, onu öz köklərinə, milli yaddaşına, tarix və mədəniyyətin dərin qatlarına doğru yönəldir.

"Azərbaycan" sadəcə bir rəsmi qəzet deyil, həm də cəmiyyətin ruhuna toxunan, onu yaşadan və gələcəyə daşıyan mənəvi kompasdır. Təhsildə və səhiyyədə aparılan islahatların cəmiyyətə təsirindən, gənclərin milli ruhda formalaşmasının vacibliyindən bəhs edən yazılar oxucunu düşündür, bir millətin sabahını kağız üzərində qurur. Qəzetdə sosial sahədən bəhs edən əmək bazarı, məşğulluq, gənclərin məşğulluğu, ailə institutları və s. barədə analitik yazılar da oxucuların ciddi maraq dairəsindədir.

"Azərbaycan" qəzeti hər hansı kommersiya və ya senzura marağından uzaq olduğu üçün etibarlılıq baxımından yüksək nüfuza malikdir. Oxucu bilir ki, buradakı yazılar rəsmi və yoxlanılmış dövlət mənbələrinə, ya da səlahiyyətli şəxslərin açıqlamalarına əsaslanır, tərəfsiz və ideoloji baxımdan doğru-dürüst faktlara söykənir. Peşəkar jurnalistikanın tələblərinə uyğun olaraq yazılarda şaiyə, dedi-qodu xarakterli məlumatlara və manipulyativ yanaşmalara yer verilmir. Sosial rifah, iqtisadi strategiya və ictimai proseslərə dair dərin təhlillər qəzetin publisist fəlsəfəsinin ayrılmaz hissəsidir. Məhz bu üstünlük xüsusən informasiya müharibəsinin gücləndiyi indiki dövrdə onun ictimai rəyi formalaşdırmaq baxımından strateji media platforması olduğunu göstərir.

Elə qəzetlər var ki, rəqəmsallaşma prosesindən geri qalır. Amma "Azərbaycan" özünün rəsmi veb-saytında yenilənən xəbər və məqalələri ilə "Feysbuk", "Yutub", "İnstaqram" üzərindən oxucularla canlı əlaqə saxlayır. Bu da onun yalnız məzmunla deyil, texnoloji yeniliklərlə də ayaqlaşdığını göstərir, müasir informasiya dövrünün çağırışlarına çevik reaksiya verdiyini və ənənəvi media ilə rəqəmsal platformalar arasında uğurlu körpü yarada bildiyini təsdiq edir.

Rəsmi statusu, ideoloji mövqeyi, tarixi legitimliyi, dərin təhlil qabiliyyəti və ictimai etimadı ölkəmizin adını daşıyan qəzetimizi milli mətbuat məktəbi və ideoloji platforma səviyyəsinə yüksəldib. Qəzeti oxumaq, əslində, Azərbaycanın bu günü və sabahı ilə bağlı aydın mövqe formalaşdırmaq deməkdir. Çünki "Azərbaycan" dövlətin mövqeyi, cəmiyyətin gözüdür.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Sağlam budaqlar sağlam köklərdən su içir

**Elə əməlisaleh insanlar var ki, onlar istər sağlığında, istərsə də dünyasını dəyişəndən sonra xoş hisslərlə, ehtiram duyğusu ilə yada düşür, xatırlanırlar. Görkəmli ictimai xadim, müqtədir jurnalist, tanınmış söz adamı, nüfuzlu qələm sahibi Nəsir İmanquliyev kimi.**



Bir neçə nəslin, o cümlədən mənim də mənsub olduğum nəslin jurnalistlərinin yetişməsində Nəsir müəllimin əvəzsiz, ölçüyəgəlməz zəhməti olub.

Nəsir müəllim yetirmələrinin yaddaşında aydın fikirli, saf əqidəli, vətəndaş qeyrətli ziyalı, xalqına, vətəninə bağlı bir insan kimi qalıb. O, ustad jurnalist, gözəl müəllim, əsl pedaqoq idi. Jurnalistikanın incəliklərini tələbələrinə səbirlə, təmkinlə izah edir, jurnalist etikası, mədəniyyəti, sözün qədir-qiymətini, mizan-tərəzisini bilməyin vacibliyini aşılayırdı.

Təbiətən sadə insan olan, sadəlikdə böyüklüyün nümunəsini göstərən Nəsir müəllim auditoriyada tələbələri ilə canlı ünsiyyət qurur, gələcək jurnalistlərin mülahizələrini həvəslə dinləyirdi.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsinin müəllim və tələbələri arasında belə bir fikir formalaşmışdı ki, fərasəti, yazı vərdişləri olan, ümidverən tələbə Nəsir müəllimin gözündən yayınmır. Bu sözlərdə həqiqət vardı: fakültənin ən yaxşı, seçmə məzunları diplomunu alan kimi, N.İmanquliyevin xeyir-duası ilə "Bakı" və "Baku" qəzetlərinin redaksiyasında işə düzəlirdi. Belə bir xoşbəxtlik mənə də nəsib olmuşdu. 1958-ci ildən nəşr edilən, uzun illərdən bəri "imzalar içində imzası olan", populyarlığını itirməyən bu qəzetlər, sözün əsl mənasında, Nəsir İmanquliyevin jurnalist ömrünün, qəzetçilik fəaliyyətinin şah əsəri idi. O illərdə bu qəzetlər gerçəkliyə sədaqəti, reallığı əks etdirməsi ilə seçilir, oxucusunu düşündürürdü. Nəsir müəllimin "Yazı yazın, səs salıb mis kimi cingildəsin" kəlamı bu gün də peşəkar jurnalistlərin dilində zərb-məsələ çevrilib.

Bəs "Bakı" qəzeti necə yaranmış, həyata necə vəsiqə almışdı?

Nəsir müəllim hələ əllinci illərin ortalarında, Mərkəzi Komitədə işlədiyi vaxtlarda Azərbaycan dilində şəhər qəzeti çıxarmağın vacibliyi barədə məsələ qaldırmışdı. Həmin dövrdə Bakının azərbaycandilli sakinlərinin sayını və tələbatını nəzərə alaraq, onun təklifini bəyənmiş, bu barədə müvafiq qərar qəbul olunmuşdu. Ovaxtkı rejimin istəyinə uyğun olaraq, şəhər qəzeti yaratmaq barədə qərar təsdiq üçün Moskvaya - Sov.İKP MK-ya göndərildi. İş elə gətirdi ki, həmin dövrdə N.İmanquliyevi Azərbaycan Radio Verilişləri Komitəsinə sədr təyin etdilər. Bu komitədə yeddi-səkkiz ay işləmişdi ki, Mərkəzi Komitədən Şıxəli Qurbanov ona zəng etdi. Bildirdi ki, "şəhər qəzeti açmaq barədə qərarımızın paytaxtdan təsdiqi gəlib".

Bu xəbəri eşidəndə Nəsir müəllimin sevincinin həddi-hüdudu yox idi. Ona bütün təşkilati işləri görüb yeni qəzeti açmaq və ona rəhbərlik etmək həvalə olundu. Düzdür, radio komitəsindəki işini dəyişib qəzetə redaktor keçməklə, əməkhaqqında fərq olsa da, buna heyifslənmədi: çoxdankı arzusuna qovuşmuşdu.

Beş ay sürən hazırlıq işləri başa çatdı, yenicə işıq üzü görən ilk axşam qəzeti bakılıların görüşünə gəldi. 1958-ci il yanvarın 10-da respublikamızda çıxan mətbu nəşrlər arasına adı paytaxtın adından götürülmüş "Bakı" qəzeti də əlavə olundu. Bu mətbu nəşr elə ilk sayındaca Bakı sakinlərinin, sadə əmək adamlarının, ziyalıların qəzeti olacağını, şəhərimizin mübarizə ənənələrini yaşadacağını vəd edirdi.

Yaradıcı heyət qəzetin ilk sayından etibarən şəhərimizin zəngin həyatını, bakılıların quruculuq işlərini işıqlandırır, müxtəlif qəzet janrlarından istifadə edirdi. Nəsir müəllim qəzetin ətrafına, necə deyərlər, güclü qələmlər toplamışdı. Sənət adamlarının - Abdulla Şaiqin, Süleyman Rüstəmin, Sabit Rəhmanın, Mirzə İbrahimovun, Rəsul Rzanın, Hüseyn Abbaszadənin, Qabilin qələmindən çıxan bədii nümunələr, publisistik yazılar qəzetə rəngarənglik gətirir, həm də oxucu marağını, rəğbətini artırırdı.

Redaksiyanın kollektivinə ümidverən, orijinal dəst-xəti, üslubu ilə seçilən jurnalistlər - Şamil Şahməmmədov (o, sonralar doğma qəzetində müxbirlikdən baş redaktorluğadək yüksəldi), Səfər Məmmədov, Manaf Süleymanov, Əhməd Rəşidov, Adil Cavad, Kazım Ələkbərov, Çingiz Ələkbərov, Famil Mehdi, Cəmşid Əmirov, Şamil Qurbanov, Rəfael Nağıyev, Cabir Novruz, sonralar Fazil Rəhmanzadə, Nüsrət Kəsəmənli, Şaban Şabanov və adını çəkə bilmədiyim qələm adamları cəlb olunmuşdu və onların əməyi bu gün ehtiramla yad edilməlidir. Qürur hissi ilə deyim ki, doğma divarları arasında 25 il çalışdığım "Bakı" qəzetində yetişən neçə-neçə əməkdaş sonralar yüksək vəzifələrə irəli çəkilmişdi.

Əvvəllər qəzet kiçik formatda çıxırdı. Tədricən tiraj artdı, "Bakı" reklam əlavələri ilə birlikdə çap olunmağa başladı. Yaradıcı heyət mövzu axtarışlarını genişləndirir, oxucularla görüşlər keçirir, operativliyini artırırdı. Axı Nəsir müəllimin təbirincə desək, "hər şeyi sürətin, dinamikanın həll etdiyi zaman idi".

1962-ci ildən isə rus dilində "Baku" qəzetini də buraxmaq Nəsir müəllimə müyəssər oldu. Hər iki qəzet oxunur, əldən-ələ gəzir, sevilirdi. Bu şəhər qəzetlərinin hətta ölkəmizin ucqar rayonlarında da abunəçiləri vardı, redaksiya çoxsaylı oxucu məktubu alırdı. İki qəzetə rəhbərlik edən Nəsir müəllim çiyinlərini olduqca ağır yükün altına vermişdi.

Milli mətbuatımızın 150 illiyinin qeyd olunduğu bu günlərdə sövq-təbii dönüb arxaya baxırıq. Artıq tarixə çevrilmiş illərin məsafəsindən görünən faktlara, habelə yaddaşımda qərar tutmuş işıqlı xatirələrə istinad edərək inamla deyə bilərəm ki, bizim Nəsir müəllim bu ağır yükü şərəflə daşımışdı. O, sanki uzaq səfərlər gəmisinin kapitanı kimi öz gəmisini məharətlə, çox mükəmməl idarə edərək, onu "oxucu okeanı"na çıxardı, otuzillik bir məsafəni mətinliklə, mərd-mərdanə qət etdi. Başqa sözlə, bu çətin vəzifədə düz otuz il sərasər çalışdı. Bəs bu uzunömürlülüyün sirri nə idi? Bunun sirri təşkilatçılıq bacarığında, məsuliyyət hissinin güclü olmasında, kollektivdə yaradıcı adamlarla dil tapmaq məharətindədir.

Nəsir müəllim redaksiyada ikiillik müxbirlər universiteti yaratmağa da nail olmuşdu. Yaxşı xatirimdədir, həmin universiteti nə qədər ictimai müxbir bitirmişdi. Məşğələləri Nəsir müəllimin uzun illər dərs dediyi Jurnalistika fakültəsinin müəllimləri aparır, müdavimlərə xüsusi sənəd təqdim edilirdi. Sonradan həmin ictimai müxbirlərin çoxu təhsillərini BDU-nun Jurnalistika fakültəsində davam etdirmişdi.

Ustad jurnalist həm də inandırıcı yazmağı tövsiyə edirdi. O, jurnalistika sahəsində mahir strateq olduğunu elə ilk fəaliyyətindən sübuta yetirmişdi. Deyirdi ki, publisistlər dövrün salnaməsini yaradan qələm sahibləridir. Dərc olunan qəzet məqaləsinin əsas məqsədi, publisist sözünün qayəsi oxucunu nəyə isə çağırmaq və onu inandırmaqdır. Yaxşı xatirimdədir, redaktorumuz antik dövrün filosof-natiqlərindən biri olan Diosfendən sitat gətirərək onun "mən sizi inandıra bilsəm, dediklərimin hamısına əməl edəcəksiniz" sözlərini tez-tez diqqətə çatdırardı. Deyərdi ki, publisist sözünün əhəmiyyəti onun müəyyən işi görməyə nə dərəcədə sövq edə bilməsi ilə ölçülür.

Nəsir müəllim yaratdığı çevik və işgüzar redaksiya kollektivinə arxalanaraq, qarşıya qoyulan missiyanı uğurla həyata keçirirdi. Redaksiya kollektivi yeni və istedadlı qələm sahiblərini birləşdirirdi. Onların hər biri fərqli istedad sahibi olsa da, ümumiləşdirici məziyyətləri vardı: böyük şəhərin çoxşaxəli həyatını yaxşı bilir, bu həyatın düzgün işıqlandırılmasını gözəl bacarırdı. Təsadüfi deyil ki, jurnalistika aləmində "yeni model" adlandırılmağa layiq olan həmin kollektivin üzvləri indi də hörmətlə xatırlanır. Redaksiyamızda hər həftəsonu keçirilən, qəzetçilərin "letuçka" adlandırdığı istehsalat müşavirələri əsl məktəb idi. Yazdığımız materiallar təhlil olunur, qiymətləndirilirdi. Redaktorumuz günün aktual problemlərindən bəhs edən, cəmiyyətdə gedən proseslərin mahiyyətini açan, gerçəkliyi əks etdirən yazılar hazırlamağı məsləhət görürdü. Nəsir müəllim faktların danılmaz gücünə, cazibəsinə əsaslanan, dərhal oxucunun diqqətini cəlb edən publisistikaya üstünlük verirdi.

Hamımızın müəllimi olan Nəsir İmanquliyevin gözünün nuru, ürəyinin odu ilə araya-ərsəyə gətirdiyi "Bakı" və "Baku" qəzetləri yaradıcılıq məktəbi kimi neçə-neçə ziyalının püxtələşməsində əvəzsiz rol oynamışdır. Bu qəzetlərin, necə deyərlər, "şinelindən çıxmış" qələm sahibləri həyatın müxtəlif sahələrində, yüksək kürsülərdə çalışır, xalqımıza böyük fayda verirlər.

Yaxşı deyiblər ki, sağlam budaqlar sağlam köklərdən su içib ucalır. Məhz bu mənada ağsaqqal, ustad jurnalistlərimizin ömür yolu, apardıqları mübarizə, onların peşəkarlığı, sənətə olan münasibəti gənc jurnalistlər, qələm sahibləri üçün bir nümunə, örnəkdir.

Bir ağrılı xatirəmi də dilə gətirmək istəyirəm. "Bakı"nın 40 illik yubileyi ərəfəsində hazırlanan xüsusi buraxılış üçün bu mətbu nümunənin yaradıcısı və həmin qəzetə məharətlə rəhbərlik etmiş, həmin dövrdə ağır xəstəlik keçirən Nəsir İmanquliyevdən müsahibə almaq mənə həvalə olunmuşdu. İlk redaktorla son müsahibəni hazırlamaq mənim taleyimə düşmüşdü.

Xeyirxah əməlləri heç vaxt unudulmayan, yetirmələrinin, tələbələrinin qəlbində, hafizəsində, xoş duyğularında yaşayan Nəsir müəllimin əziz xatirəsi heç vaxt unudulmayacaq. Ustad jurnalist bu sayğı və ehtiramı, dərin sevgini şəxsi nümunəsi ilə haqq edib.

*Zemfira MƏHƏRRƏMLİ,*
*yazıçı-publisist, Əməkdar jurnalist*

# Gəncədə Türkiyənin Demokratiya və Milli Birlik Günü qeyd edilib





**Türkiyə Respublikasının Gəncədəki Baş Konsulluğunun təşkilatçılığı ilə 15 İyul - Demokratiya və Milli Birlik Günü münasibətilə anım tədbiri keçirilib.**

Tədbirdə Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, bələdiyyə sədrləri, idarə və müəssisə rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Öncə Vətən uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, Türkiyə və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Baş konsul Recep Öztop 15 İyul Demokratiya və Milli Birlik Gününün əhəmiyyətindən danışaraq qeyd edib ki, 2016-cı il iyulun 15-də Türkiyə tarixində ən ağır çevriliş cəhdi baş verdi: "Ancaq xalq Prezident Rəcəb Tayyib Ərdoğanın çağırışına səs verərək küçə və meydanlara axışdı, dövlətini, demokratiyanı və milli birliyini qorumaq üçün qətiyyət nümayiş etdirdi. Bu gün türk xalqı həmin hadisələr zamanı şəhid olmuş vətən övladlarını böyük minnətdarlıq və ehtiramla yad edir".

Gəncə ŞİH başçısının müavini Adil Tağıyev isə çıxışında bu sınaq günündə Azərbaycanın bir daha "Bir millət, iki dövlət" prinsipinə sadiq qaldığından danışıb: "Dövlət çevrilişinə cəhd zamanı Azərbaycan Türkiyənin yanında oldu. Hadisənin ilk anlarından Prezident İlham Əliyev Türkiyə dövlətinə olan dəstəyini açıq şəkildə ifadə etdi".

Tədbirin sonunda Demokratiya və Milli Birlik Gününə həsr olunmuş videoçarx nümayiş olundu.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə 2025-ci il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Azərişıq" ASC Tovuzun bir sıra kəndlərində elektrik təsərrüfatını yeniləyir

**"Azərişıq" ASC regionların elektrik təsərrüfatını yeniləmək məqsədilə quruculuq işlərini davam etdirir. Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən tədbirlər nəticəsində Tovuzun Göyəbaxan və Aşağı Quşçu kəndlərinin köhnəlmiş elektrik şəbəkələri yenidən qurulur.**

Göyəbaxan kəndində istismar müddətini başa vurmuş dayaqlar və elektrik xətləri, eləcə də sayğaclar yeniləri ilə əvəz olunub. Həmçinin kənddə müasir tipli 2 Komplekt Transformator Məntəqəsi (KTM) quraşdırılıb. Aşağı Quşçu kəndində yerləşən Qaradaş yaşayış massivinin elektrik təsərrüfatının yenilənməsi məqsədilə 0.4 kV-luq müasir tipli kompozit dayaqlar basdırılır, köhnə elektrik xətlərinin əvəzinə Özünüdaşıyan İzolyasiyalı Naqillər (ÖİN) çəkilir, sayğaclar yenilənir. Əhalinin elektrik enerjisinə artan tələbatı nəzərə alınaraq yaşayış massivində 4 yeni güc mərkəzinin quraşdırılması nəzərdə tutulub. Rayonun Çobansığnaq, Nəmxoş və Sarıtala kəndlərinin də elektrik şəbəkəsi yenilənəcək.

"Azərişıq" ASC Tovuzla yanaşı, ölkənin bütün regionlarında bir sıra kənd və qəsəbələrdə yenidənqurma işlərini davam etdirir. Məqsəd abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunması, elektrik enerjisi itkilərinin minimuma endirilməsinə xidmət etməkdir.

***"Azərbaycan"***

# Əlilliyi olan şəxslərə 69 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin birinci yarımilində əlilliyi olan şəxslərə 69 min reabilitasiya vasitəsi verilib.**




Onlardan 4,5 mindən çoxu təkərli oturacaq (o cümlədən 44-ü mühərrikli təkərli oturacaq), 1,3 mini aşağı və yuxarı ətraf protezi, 3,3 mini əsa, qoltuqaltı və dirsəkaltı ağac olub.

Həmçinin əlilliyi olan şəxslərə 5,1 min cüt protez və ortopedik ayaqqabı, 346 eşitmə aparatı, 285 korset və s. reabilitasiya vasitələri təqdim edilib.

Ümumiyyətlə, cari ilin 6 ayında əlilliyi olan 8,4 min şəxsə reabilitasiya vasitələri verilib.

***"Azərbaycan"***

# Qareginin qara günü yaxınlaşır

**Ermənistanda sosial narazılıqlardan istifadə edən keçmiş hərbi xuntanın revanş istəkləri puç olub. Sarkisyan-Koçaryan tandemi kilsəni də siyasi proseslərə cəlb edərək ölkədəki xaosu dərinləşdirməyə cəhd göstərsə də, istədiklərinə nail ola bilməyib. Baş nazir Nikol Paşinyan Erməni Apostol Kilsəsini (EAK) "təsir agenti" adlandırıb və söz verib ki, yaxın aylarda bununla məşğul olacaq.**





Baş nazir sonuncu mətbuat konfransında bildirib ki, Ermənistan hakimiyyəti ölkəni Serj Sarkisyandan azad etdiyi kimi, Erməni Apostol Kilsəsini də azad edəcək. O, bütün ermənilərin katolikosuna qarşı kampaniya təşkil etməklə bağlı ittihamları rədd edib və kilsəyə qarşı kampaniya başlatmayacağını qeyd edib: "Erməni Apostol Kilsəsi mən və ailəm üçün müqəddəsdir. Buna görə də biz onunla heç bir şəkildə mübarizə apara bilmərik. Nə ediriksə, kilsənin özü üçün edirik. Əgər kilsə bizim üçün müqəddəs olmasaydı, bu gün müşahidə olunan dağıdıcı prosesə, sadəcə, laqeyd qalardıq. Üstəlik, kilsənin indiki fəaliyyətləri, təəssüf ki, onun özünə zərər verir".

Paşinyan artıq bir müddətdir ki, kilsə rəhbərliyini dövlət işlərinə müdaxilədə və siyasi dairələrlə gizli əməkdaşlıqda ittiham edir. Onun fikrincə, Ermənistan Apostol Kilsəsi, xüsusən də hazırkı katolikos, cəmiyyətin demokratik inkişafına mane olur və keçmiş hakimiyyətlərlə sıx əlaqədə qalmaqda davam edir.

"Hraparak" nəşri yazıb ki, Nikol Paşinyan hakim partiyanın idarə heyətinin üzvlərinə kilsəyə qarşı təzyiqləri daha da artırmağı tapşırıb. Qeyd olunub ki, ruhanilər barədə dəhşətli hekayələri yaymaq, əsəb savaşı aparmaq, kilsə xadimlərini hər gün gözdən salmaq tapşırılıb: "Yeri gələndə hüquq-mühafizə orqanlarına qanunsuz göstərişlər vermək, insanların şəxsi həyatının toxunulmazlığını pozmaq nəticəsində əldə edilmiş sübutları, faktları da dərc edəcəklər. Hələlik xalqın səbrinin tükənəcəyindən və əks effekt verə biləcəyindən ehtiyatlanaraq "ifşalar etmək"də tərəddüd edirlər. Paralel olaraq hakimiyyət, həmçinin kilsə daxilində müxtəlif ruhanilər vasitəsilə II Qareginə qarşı koalisiya yaratmaq və onun uzaqlaşdırılması üçün münbit zəmin yaratmaq üzərində işləyir. Lakin indiki məqamda bu cür ruhanilər hələ də azlıq təşkil edir və çətin ki, çoxluq təşkil edib kilsə daxilində "hakimiyyət dəyişikliyi" həyata keçirsinlər".

Xatırladaq ki, Paşinyan hökuməti kilsə başçısına qarşı mübarizəsini Qareginin mühafizəçilərinin dövlətdən maliyyələşdirilməsini dayandırmaqla başlamışdı. Bundan sonra proses kilsənin fırıldaqla məşğul olması, dələduzluğu, 12 milyon dollar məbləğində ianəni mənimsəməsi ilə bağlı ittihamlarla davam edib.

Bir neçə il öncə Eçmiədzin rayonunda bir qrup vətəndaş istefa tələbi ilə katolikos II Qareginin ofisinə hücum etmişdi. "Yeni Ermənistan, yeni patriarx" devizi ilə başlayan aksiyanın iştirakçıları II Qareginin kilsəyə layiq olmadığını demişdilər. Aksiya iştirakçılarının iddialarına görə, o, agentdir və xalqın xeyrini zərrə qədər də düşünmür. Ali patriarx "məxməri" inqilaba qədər ölkəni idarə edən cinayətkar rejimə satılmaqda ittiham olunmuşdu.

Bu arada rusiyalı iş adamı Samvel Karapetyana qarşı Ermənistan hüquq-mühafizə orqanları tərəfindən yeni ittihamlar irəli sürülüb. Bu barədə biznesmenin vəkilləri məlumat yayıblar. Vəkillərin bildirdiyinə görə, Karapetyan bir neçə şirkətin fəaliyyəti nəticəsində "çirkli pulların yuyulması"nda ittiham olunur. Onlar hesab edirlər ki, bu ittihamlar heç bir fakt təqdim olunmadan, əsassız şəkildə irəli sürülüb. "Son vaxtlar Ermənistanda 'çirkli pulların yuyulması' ittihamı siyasi qisas aləti kimi istifadə edilir və bu, artıq geniş yayılmış praktika halını alıb", - deyə Karapetyanın müdafiəçiləri bəyan ediblər.

Qeyd edək ki, Karapetyan uzun illərdir Rusiyada biznes fəaliyyəti ilə məşğuldur və bəzi dairələr onun Ermənistanla bağlı siyasi mövqeyinə görə təzyiqlərə məruz qaldığını iddia edirlər.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət növbəti dəfə mürəkkəbləşməyə doğru gedir. Bu da o deməkdir ki, ölkə sonu görünməyən daxili siyasi böhrandan birdəfəlik qurtula bilmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Fransa hökuməti maliyyə intizamının bərpası planını təklif edir

## Yeni büdcə qurbansız ötüşməyəcək

**Baş nazir Fransua Bayru Fransada maliyyə intizamını bərpa etmək planını - zəruri hesab etdiyi qeyri-populyar tədbirlərin uzun siyahısını təqdim edib. O, saniyədə 5000 avro sürətlə artan xərcləri dayandırmaq və 2029-cu ilə qədər dövlət borcunun ÜDM-ə nisbətini sabitləşdirmək məqsədilə plan hazırlayıb.**



Onun üçün dövlət 43,8 milyard avroya qənaət etməlidir ki, bu da əvvəllər planlaşdırıldığından çoxdur. Vəziyyəti Prezident Emmanuel Makron mürəkkəbləşdirib: hökumətin qənaətlə bağlı açıqlamaları ərəfəsində o, müdafiə xərclərini 3,5 milyard avro artırmaq niyyətində olduğunu bildirib.

Bayrunun planının mərkəzi elementi "ağ il" deyilən ildir, yəni pensiyaların, müavinətlərin indeksləşdirilməsi və vergi şkalasının tətbiq edilməyəcəyi bir il... İstər təqaüdçü, istər işçi, istərsə də işsiz, inflyasiya səviyyəsindən asılı olmayaraq, heç kim keçənildəkindən çox almayacaq. Səhiyyə xərcləri bütövlükdə azalacaq: dərmanların ödənişi aşağı düşəcək və işdən azad edən xəstəlik vərəqələrinə nəzarət gücləndiriləcək.

Mərkəzçi Bayru hesab edir ki, ictimai səhiyyə sistemi əsassız olaraq səxavətlidir və zəif idarə olunur. O, "məhsuldar olmayan dövlət qurumlarını" bağlamaq, dövlət qulluqçularının sayını azaltmaq, pensiyaçılar üçün vergi endirimi sxemini dəyişdirmək istəyir. Əhalinin ən varlı təbəqələrindən və böyük biznesdən "həmrəylik töhfəsi" şəklində iştirak da tələb olunacaq.

Tərəfdarları Bayrunun onlarla bənddən ibarət planını "şok terapiyası" kimi təqdim edirlər. Əleyhdarları isə Fransa kommunistlərinin (PCF) rəhbəri Fabyen Russel kimi "mütəşəkkil dəstənin tərkibində silahlı soyğunçuluqdan" danışırlar.

Ümumi prinsip sadədir: 2026-cı ildə 2025-ci ildən artıq xərcləmək olmaz. Bayrunun təcili tədbirləri nəticəsində, demək olar ki, bütün nazirliklər əlavə maliyyə vəsaitlərini itirəcək (Müdafiə Nazirliyi və Ədliyyə Nazirliyi istisna olmaqla: xarici təhlükəsizlik - daxili təhlükəsizlik). Funksionerlərin ixtisarı işdən çıxarılmadan baş tutacaq. Belə ki, plan yalnız təqaüdə çıxan üç dövlət qulluqçusundan birinin əvəz olunmasından imtinanı nəzərdə tutur. Pensiya alanlar üçün faiz ayırmaları ləğv edilir, lakin əvəzində illik 2000 avro məbləğində birdəfəlik tutulma tətbiq olunacaq.

Bayru həm də qənaət tədbiri olaraq iki qanuni bayramı - 8 May və Pasxadan sonrakı bazar ertəsini ləğv etməyi təklif edir və sonuncunu "dini əhəmiyyəti olmayan" adlandırır.

Sosialistlərin (PS) bu yaxınlarda yenidən seçilən lideri Olivye For buna görə qəzəblənib: "Bu, dirçəliş planı deyil, fransız modelini məhv etmək planıdır. Bu, ağ il deyil, qara ildir". Hətta təmkinli dəstək gözlənilən sağçı Respublikaçılar (LR) da bu təklifi düşmənçiliklə qarşılayıblar. Milli Assambleyadakı LR fraksiyasının rəhbəri Loran Vokye "ağ il"in "fiskal qırğın üçün evfemizm" olduğunu söyləyib və vergi artımlarını ehtiva edən büdcəyə səs verməyəcəyinə söz verib.

İfrat sağçı Milli Birlik (RN) Partiyasının rəhbəri Marin Le Pen də öz rəqibləri ilə razılaşır. O hesab edir ki, Bayru nəzarətsiz immiqrasiya və qaçqınların xərcləri, bərpaolunan enerji, Avropa xəzinəsinə ödənişlər və digər bu kimi cəfəngiyyata qənaət etməli idi. Əvəzində "zərbə yenidən fransızlara, işçilərə və təqaüdçülərə vuruldu" deyən Le Pen hökumət başçısını hədələyib: "Əgər Bayru planını yenidən yazmasa, biz onu təqaüdə göndərəcəyik".

Ekspertlər hesab edirlər ki, büdcə ilə bağlı vəziyyət payıza qədər asılı qalacağına görə hökumət üçün son dərəcə təhlükəlidir. Belə ki, baş nazirin nə manevr etmək üçün maliyyə imkanları, nə də güvənmək üçün parlament çoxluğu var. Payızda səsvermə başlayanda hazırladığı büdcə planının ilk qurbanı elə Fransua Bayru özü ola bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Oktay Əlqəmə oğlu Süleymanova məxsus "Veteran" Universal Müəssisəsinə verilmiş dövlət qeydiyyatı haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının direktor müavini Emin İsmayılova atası

**HƏSƏN İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Stomatologiya fakültəsinin dekanı dosent Elmira Ramil qızı Əliyevaya anası

**VİŞNİKİNA TATYANA MİXAYLOVNANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | | |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3640
Sifariş 1457

Qiyməti 60 qəpik